**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

14 fevral 2026-cı il №06 (9161) www.muallim.edu.az muallim@media.edu.az

**Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası" imzalanıb**

## Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir



## Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir

**Prezident İlham Əliyev:**

"Biz Azərbaycana çox müsbət münasibətə görə Tramp-Vens administrasiyasına olduqca minnətdarıq. Strateji Tərəfdaşlıq haqqında Xartiyanın bu gün imzalanması mərasimi heyətlərimizin altı ay ərzində gördüyü çox gərgin işin təzahürüdür... Bizim üçün dünyanın ən qüdrətli ölkəsi - Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir. Biz, həmçinin Prezident Trampa, Vitse-prezident Vensə və onların heyətinə Qafqazda sülhə verdikləri töhfəyə görə çox minnətdarıq. Ötən avqustda Ermənistan və Azərbaycan Ağ Evdə Prezident Trampın iştirakı ilə sülh sazişini parafladılar və biz Prezident Trampın, həmçinin şahid kimi imzaladığı Sülh haqqında Birgə Bəyannaməni imzaladıq. Artıq altı aydır ki, biz sülh şəraitində yaşayırıq. Biz sülh içində yaşamağı öyrənirik... Biz bu cür böyük töhfəyə görə ABŞ Hökumətinə çox minnətdarıq".

**Vitse-prezident Cey.Di.Vens:**

"Ümidimiz Azərbaycan ilə Ermənistan arasında həqiqətən inanılmaz sülh sazişinin dayanıqlı olmasını mümkün edəcək iqtisadi, təbii sərvətlər, əsas minerallarla bağlı əməkdaşlığın qurulmasıdır... Hazırda sülh sazişi baxımından düşünürəm ki, Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir. Bu gün mən Ermənistanda idim. Ermənistanın Baş naziri və Azərbaycan Prezidentinin liderliyi olmasaydı, biz sülh sazişinə nail ola bilməzdik. Düşünürəm ki, üç şəxs tarixi sülhü yaratdı. Bu ölkənin Prezidenti, Ermənistanın Baş naziri və əlbəttə, ABŞ Prezidenti birgə işləyərək, əvvəllər müharibə olmuş məkanda sülh yaratdılar. Düşünürəm ki, gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir".

*Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens mətbuata bəyanatlarla çıxış ediblər*

## Kadr hazırlığı əsas vəzifələrdən biridir



## Biz öz təhsil sistemimizdə bu sahəyə daha böyük diqqət göstərməliyik

"Kadr hazırlığına gəldikdə, bu, əsas vəzifələrdən biridir. Son vaxtlar bu istiqamətdə müəyyən işlər görülür. Biz öz təhsil sistemimizdə bu sahəyə daha böyük diqqət göstərməliyik. Həm Azərbaycanda fəaliyyət göstərən ali məktəblərdə, eyni zamanda, dövlət xətti ilə xaricə göndərilən tələbələr bu ixtisas üzrə peşəkarlığı artırmalıdırlar. Ona görə nəzərə alsaq ki, bu, uzunmüddətli proses olacaq və bu proses ancaq və ancaq genişlənəcək, gələcəkdə bu sahədə kadrlara böyük ehtiyac olacaq. Təbii ki, orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməlidir".

"Süni intellektin tətbiqi dövlət qurumlarında geniş vüsət almalıdır. Bu gün bu sahədə aparıcı ölkələrdə bu belədir... Kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilməlidir. Bu sahə də kritik sahələrdən biridir. Biz keçən il çox mütəşəkkil və aqressiv kiberhücuma məruz qalmışıq. Biz onun mənbəyini də bilirik və lazımi tədbirlər də görülmüşdür ki, özümüzü bu ciddi problemlərdən qoruya bilək. Ona görə bu sahəyə ciddi diqqət göstərilməlidir... Hesab edirəm ki, bugünkü müşavirə və bu məsələnin Prezidentin nəzarəti altında olması bizim bir çox tərəfdaşlarımıza da ciddi mesaj olacaq ki, Azərbaycan bu sahəni özü üçün prioritet sayır".

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 11-də "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədəki çıxışından**

## Leyla Əliyeva və Alena Əliyeva Gəncədə STEAM mərkəzində və 37 nömrəli tam orta məktəbdə olublar



Leyla Əliyeva və Alena Əliyeva Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü liseydə fəaliyyət göstərən STEAM mərkəzində və Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə olublar. Mərkəzlə tanışlıq zamanı Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan məktəblərində STEAM (Science, Technology, Engineering, Art, Mathematics) layihəsinin geniş icrasına başlanıldığı barədə məlumat verilib.

Bax səh.2

## Azərbaycanın yeni rəqəmsal arxitekturası

### Strateji baxışdan təhsildə praktik icraya




Müasir dövrdə rəqəmsal texnologiyalar dövlətlərin inkişaf trayektoriyasını müəyyən edən əsas amillərdən birinə çevrilib. Süni intellekt, data mərkəzləri və kibertəhlükəsizlik artıq təkcə texnoloji yenilik deyil, milli təhlükəsizlik, iqtisadi rəqabətlilik və dayanıqlı inkişaf məsələsidir. Bu reallıqları nəzərə alaraq Azərbaycan da rəqəmsal transformasiyanı strateji prioritet kimi müəyyənləşdirib. Fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə bu məsələlər geniş müzakirə olunub.Dövlət başçısı çıxışında bildirib ki, rəqəmsal inkişaf ölkənin gələcək inkişafını böyük dərəcədə şərtləndirəcək. Dünyada müşahidə olunan trendlər-süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması və rəqəmsallaşma sahəsində aparılan islahatlar artıq ölkələrin gələcəyini formalaşdırır. Eyni zamanda qeyd olunub ki, biz bu gün dünyanın aparıcı güc mərkəzləri ilə artıq imzalanmış strateji tərəfdaşlıq formatında çalışan nadir ölkələrdənik.

Bax səh.4

# Leyla Əliyeva və Alena Əliyeva Gəncədə STEAM mərkəzində və 37 nömrəli tam orta məktəbdə olublar











Leyla Əliyeva və Alena Əliyeva Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü liseydə fəaliyyət göstərən STEAM mərkəzində və Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə olublar.

Mərkəzlə tanışlıq zamanı Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan məktəblərində STEAM (Science, Technology, Engineering, Art, Mathematics) layihəsinin geniş icrasına başlanıldığı barədə məlumat verilib.

Bildirilib ki, STEAM mərkəzi liseyin tərkibində 2021-ci ildən etibarən fəaliyyət göstərir. Mərkəz bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulub. Burada "Robotics", "Art", "Science", "STEAM Kids", CNC və 3D çap, mexatronika, dron istiqamətləri üzrə sahələr fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, Mərkəzdə yaradılmış imkanlardan sözügedən məktəblə yanaşı, regionun digər məktəblərinin şagird və müəllimləri də istifadə edir. Hər tədris ili 1000-dən çox şagird Mərkəzdə müxtəlif modullar üzrə təlimlərdə iştirak edir.

Qeyd edək ki, 2019-cu ildən tətbiqinə başlanılan STEAM layihəsinin əsas məqsədi təhsilalanlarda tənqidi, yaradıcı düşünmə, əməkdaşlıq etmə və digər bacarıqları formalaşdırmaq, yaradıcı proses vasitəsilə öyrənmə imkanı yaratmaq, fənləri ayrılıqda öyrətmək deyil, onları real dünyadakı tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirməkdir.

Daha sonra Leyla Əliyeva və Alena Əliyeva Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilmiş Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə yaradılmış şəraitlə tanış olublar.

Bildirilib ki, 1969-cu ildə inşa olunmuş Gəncə şəhəri, Kəpəz rayonu 37 nömrəli orta məktəbin binası ötən müddət ərzində köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşüb. 2024-cü ilin noyabrından Heydər Əliyev Fondu tərəfindən 724 şagirdlik məktəbin əsaslı təmir işlərinə başlanılıb.

Təhsil ocağı 3 mərtəbəli 1 korpusdan və 2 mərtəbəli 3 korpusdan ibarətdir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəb binasında sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, musiqi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası var.

Təhsil müəssisəsinin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, əraziyə asfalt örtüyü döşənib, dekorativ kol və ağaclar əkilib.

Ziyarət zamanı müxtəlif yaş qruplarına aid 50 uşağa velosiped, eləcə də təhlükəsizlik ləvazimatı hədiyyə edilib. Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi ilə keçirilən sosial aksiyanın əsas məqsədi regionlarda yaşayan uşaqların asudə vaxtlarını daha səmərəli şəkildə keçirmələrinə şərait yaratmaq, onların idmana və sağlam həyat tərzinə marağını artırmaq, məktəbliləri fiziki fəallığa həvəsləndirmək, habelə ekoloji nəqliyyat vasitəsi kimi velosiped istifadəsini təşviq etməkdir.

**AZƏRTAC**

# Elm və təhsil naziri İndoneziyanın ölkəmizdəki səfiri ilə görüşüb



**Elm və təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib**

Fevralın 12-də elm və təhsil naziri Emin Əmrullayev İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Berlian Helmy ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.

# Emin Əmrullayev "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb








**Elm və təhsil naziri Emin Əmrullayev dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri Orxan İsgəndərov və İnsafəli Səmədovla növbəti dəfə görüşüb.**

Görüş zamanı qaliblərin peşəkar inkişaf perspektivləri, dövlət idarəçiliyində və təhsil sahəsində kadr potensialının gücləndirilməsi istiqamətində görülən işlər müzakirə olunub.

Nazir çıxışında gənc və perspektivli peşəkarların ölkənin inkişafında mühüm rol oynadığını vurğulayıb. Nazir bildirib ki, müasir dövrdə təşəbbüskar, innovativ düşüncəyə malik və yüksək məsuliyyət hissi daşıyan kadrların formalaşdırılması strateji prioritetdir.

Qaliblər mentorluq proqramı çərçivəsində qazandıqları təcrübə, əldə etdikləri bilik və bacarıqlar barədə fikirlərini bölüşüblər.

Görüşdə qarşılıqlı fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı Sərəncamla təsis olunub. Müsabiqə qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı və özünüinkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə edirlər.

# Elm və Təhsil Nazirliyi və "Kapital Bank" arasında uğurlu əməkdaşlıq davam edir

**Elm və Təhsil Nazirliyi ilə "Kapital Bank" arasında formalaşmış əməkdaşlıq çərçivəsində 2025-ci il ərzində təhsilin müxtəlif pillələrini əhatə edən bir sıra sistemli layihələr həyata keçirilib. Bu təşəbbüslər təhsil ekosisteminin inkişafına, gənclərin potensialının reallaşdırılmasına və sosial rifahın yüksəldilməsinə xidmət edir.**

Əməkdaşlığın ən uzunmüddətli və genişmiqyaslı istiqamətlərindən biri Respublika fənn olimpiadalarına göstərilən dəstəkdir. "Kapital Bank" 2017-ci ildən etibarən olimpiadaların təşkilinə töhfə verir. 2017—2025-ci illər ərzində 335 minədək şagird olimpiadalarda iştirak edib, 3082 nəfər isə qalib adını qazanıb.

Ali təhsil sahəsində əməkdaşlıq çərçivəsində Bakı Mühəndislik Universitetində, Azərbaycan Dövlət İqtisad Universitetində, Azərbaycan Texnologiya Universitetində və Azərbaycan Dövlət Neft və Sənaye Universitetində, Bakı Dövlət Universitetində müasir "Kapital Bank" otaqları yaradılıb. Bu otaqlarda bank mütəxəssisləri tərəfindən keçirilən təlimlər tələbələrin real iş mühiti ilə tanış olmasına imkan yaradır.

"Birbank"ın təşəbbüsü ilə reallaşdırılan "Dəyişiklik Səndən başlayır" layihəsi gənclər və uşaqlar arasında bullinqə qarşı mübarizəni və təhlükəsiz sosial mühitin formalaşdırılmasını hədəfləyir. Layihə çərçivəsində müəllim və təlimçilər üçün beynəlxalq təcrübəyə əsaslanan təlimlər keçirilir.

Eyni zamanda "Qırmızı Ürəklər" Fondu ilə birgə icra olunan "Onu Oxut" aksiyası vasitəsilə həssas əhali qruplarından olan 94 tələbəyə təhsil dəstəyi göstərilib.

Bundan əlavə, "Kapital Bank", Təhsilin İnkişafı Fondu və "Visa" şirkətinin birgə layihəsi olan "TələbəPlus" çərçivəsində hazırda 25 universitet üzrə 190 min tələbə vahid güzəşt və endirimlərdən yararlanır. Təhsil sahəsində çalışanların sosial rifahının yüksəldilməsinə yönəlmiş "TəhsilPlus" layihəsinin isə 2026-cı ildən etibarən tətbiqi planlaşdırılır.

Elm və Təhsil Nazirliyi ilə "Kapital Bank" arasında əməkdaşlıq gələcək dövrdə də təhsilin inkişafına yönəlmiş layihələrin dəstəklənməsinə töhfə verməyə davam edəcək.

Qeyd edək ki, "Kapital Bank" Bir ekosisteminin aparıcı brendlərindən biridir.

# Əməkdaşlıq istiqamətləri müzakirə olunub

## Nazir müavini Çin Xalq Respublikasının təhsil nazirinin müavini ilə görüşüb

**Elm və təhsil nazirinin müavini Həsən Həsənlinin rəhbərlik etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində sözügedən ölkənin təhsil nazirinin müavini Ren Youqun ilə görüşü baş tutub.**



Görüş zamanı tərəflər süni intellekt, ümumi təhsil sahəsində nəzərdə tutulan yeni təşəbbüslər, o cümlədən ali təhsil sahəsində birgə universitetin yaradılması imkanı da daxil olmaqla, bir sıra əməkdaşlıq istiqamətləri üzərində ətraflı fikir mübadiləsi aparıb.

# "Huawei" şirkətində görüş



Elm və Təhsil Nazirliyinin nümayəndə heyətinin Çin Xalq Respublikasına işgüzar səfəri çərçivəsində "Huawei" şirkətinin baş ofisində bir sıra görüşlər keçirilib.

Tərəflər informasiya-kommunikasiya texnologiyaları sahəsində mövcud əməkdaşlıq imkanlarını, xüsusilə təhsilin idarəolunması üzrə innovativ həlləri, eləcə də şirkətin tədqiqat və inkişaf istiqamətində qazandığı qabaqcıl təcrübəni müzakirə ediblər.

"Huawei" şirkətinin nümayəndələri tərəfindən süni intellekt sahəsində son texnoloji yeniliklər, rəqəmsal transformasiya strategiyaları və bu istiqamətdə həyata keçirilən qlobal layihələr barədə ətraflı təqdimat edilib. Xüsusilə təhsil və elmi tədqiqat müəssisələri ilə əməkdaşlıq çərçivəsində innovativ laboratoriyaların yaradılması, birgə tədqiqat proqramlarının təşkili, kadr hazırlığı və bilik transferi mexanizmləri müzakirə olunub.

# İnkişafa meyilli insanlar bilikləri daha effektiv mənimsəyirlər

## Elm və Təhsil Nazirliyinin əməkdaşları üçün insan hüquqları mövzusunda təlim keçirilib

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatı və Elm və Təhsil Nazirliyinin əməkdaşlığı çərçivəsində nazirlik və tabe qurumların əməkdaşları üçün "İnsan hüquqları sahəsində beynəlxalq, regional və milli qanunvericilik aktlarının tətbiqi" mövzusunda təlim təşkil olunub.**

Təlimin açılışında çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli hüquqi maarifləndirmənin əhəmiyyətini vurğulayaraq bu istiqamətdə göstərilən dəstəyə görə Ombudsman Aparatının əməkdaşlarına təşəkkür edib. Mətin Kərimli qeyd edib ki, inkişafa meyilli insanlar öyrənməyə daha həvəsli olur və bilikləri daha effektiv mənimsəyirlər.

Tədbirin mövzusunun hər kəs üçün önəmli olduğunu bildirən Mətin Kərimli insan hüquqları sahəsində məlumatlılığın artırılmasının vacibliyini xüsusi qeyd edib və hər kəsin bu mövzuya maraq göstərməsinin əhəmiyyətini vurğulayıb.

Ombudsman Aparatının Əhali qruplarının hüquqları ilə iş şöbəsinin müdiri vəzifəsini icra edən Aynur Həmidova dövlət qulluqçularının insan hüquqları sahəsində biliklərinin artırılmasının, beynəlxalq insan hüquqları standartlarının gündəlik xidməti fəaliyyətə tətbiqinin əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, insan hüquqlarına əsaslanan yanaşma dövlət idarəçiliyində şəffaflığın, hesabatlılığın və vətəndaş məmnunluğunun yüksəldilməsinə xidmət edir.






Təlimdə Ombudsman Aparatında şöbə müdirinin müavini — İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi sektorunun müdiri Adil Eyvazov tərəfindən iqtisadi, sosial və mədəni hüquqların, o cümlədən təhsil hüququnun beynəlxalq və milli hüquqi mexanizmlər əsasında təmin olunması məsələlərinə dair çıxış edilib.

Təlimçi qismində Ombudsman Aparatının Hüquqi maarifləndirmə sektorunun müdiri Müqalib Mahmudov və sektorun baş məsləhətçisi Aydan Talıbova tərəfindən insan hüquqları anlayışı və əsas prinsiplər, Ombudsman institutunun mandatı, Birləşmiş Millətlər Təşkilatı sistemində insan hüquqları, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı əsas beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər, habelə bu standartların dövlət qulluğunda praktik tətbiqi mövzularında ətraflı təqdimatlar edilib.

İnteraktiv formatda keçirilmiş təlimdə iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Azərbaycanda peşə təhsilini seçən əcnəbilər

Azərbaycanda peşə təhsili almaq istəyənlərin sayı ildən ilə artır. Təkcə sonuncu - 2025/2026-cı tədris ilində peşə təhsili müəssisələrinə 84 xarici ölkə vətəndaşı qəbul olunub. "Azərbaycan müəllimi"nə Peşə Təhsili üzrə Dövlət Agentliyindən bildirilib ki, onların sayı 2024/2025-ci tədris ilində 66, 2023/2024-cü tədris ilində isə 57 nəfər olub. Bu il qəbul olunanlar arasında 3 nəfər Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzini seçib. Onların arasında ali təhsilli də var. Pakistan vətəndaşı olan tələbələr deyir ki, burada təhsil üçün də, yaşamaq üçün də şərait olduğunu onlara Azərbaycanda yaşayan qohumları deyib.

## Aralarında ali təhsilli də var





### Məhəmməd Samer əvvəlcə ali təhsil aldı, sonra peşə təhsili

Pakistanlı tələbələrin üçü də Bakı Dövlət Peşə Təhsil Mərkəzində "Kompüter təmiri və xidmət üzrə texnik" ixtisasına yiyələnir. Müəssisədə bu ixtisas üzrə 1 illik 2 qrup təşkil edilib. Məhəmməd Samer və Adnan Məhəmməd bir qrupda, Arman Haydar ayrı qrupda oxuyurlar.

Məhəmməd Samer artıq 5 ildir ki, Azərbaycandadır. 23 yaşlı gənc əvvəlcə Bakıda ali təhsil alıb: "Odlar Yurdu Universitetində "Kompüter mühəndisliyi" ixtisası üzrə təhsil aldım. Sonra peşə təhsili almağa qərar verdim".

Məhəmməd Samer ixtisasını bu dəfə işin peşəkarlarından tətbiq edərək öyrənmək istəyir: "Universitetdə bu cür təcrübələr yoxdur, amma peşə təhsilində hər şeyi təcrübədən keçirərək öyrənirəm".

Onun fikrincə, universitetdən sonra oxumaq işini asanlaşdırıb: "Universitetdə kitabdan oxumuşam, nəzəriyyəsini bilirəm, indi burada tətbiqini öyrənirəm. Kompüterdə nə var, nə yox, hamısını bilirəm".

O, sadəcə ixtisasının nəzəriyyəsini deyil, Azərbaycan dilini də universitetdə öyrənib: "Azərbaycan dilini bir az öyrəndim. İndi azərbaycanca yaza da bilirəm, oxuyuram da".

Hələlik işləmir, amma burada iş də tapacağına inanır: "Peşə təhsili aldıqdan sonra iş tapmaq da asanlaşır. Təhsilimi tamamladıqdan sonra burada işləməyi planlaşdırıram".

Bakıya təhsil almaq üçün gələn Məhəmməd Samerin başqa planları da var: "4 dayım var, dördünün də həyat yoldaşı azərbaycanlıdır. Mən də burada evlənəcəyəm".

Burada təhsil üçün yaxşı şərait olduğu barədə ona yaxını məlumat verib, indi o da öz dostlarına tövsiyə edir: "Dayım Azərbaycanda yaşayır. Mən də onun yanında qalıram. Ata-anam Pakistanda işləyirlər. Azərbaycana oxumaq üçün gəlmişəm. Çoxlu dostlarım var. Onlara demişəm ki, ölkə də, hava da, yeməklər də çox yaxşıdır".

### Adnan Azərbaycanda peşə təhsili aldıqdan sonra Pakistanda da rahat iş tapacağına inanır

Məhəmməd Samerin bu təbliğatı artıq nəticə verib. Azərbaycanda təhsil almağa cəlb etdikləri arasında hazırda onunla eyni peşə təhsili qrupunda oxuyan bir nəfər var - qrup yoldaşı, həmvətəni və yaxın qohumu Adnan Məhəmməd. Adnan 30 yaşındadır. Azərbaycana məhz Məhəmməd Samerin təklifi ilə, özü də, sadəcə təhsil almağa gəlib: "Xalam oğlu 16 ildir burada yaşayır, ondan da burada vəziyyətin yaxşı olduğunu öyrəndim. Dedi ölkə də yaxşıdır, təhsil də".

Təhsil almaq üçün Azərbaycan dilini öyrənməkdən başlayıb. O da bir ilini Azərbaycan dilini öyrənməyə həsr edib: "2 ildir buradayam. Əvvəlcə Azərbaycan dilini öyrəndim. İndi peşə təhsili alıram. Burada təhsilimi tamamladıqdan sonra öz ölkəmə qayıdacağam".

Amma Bakıda qalmaq ehtimalını da istisna etmir: "Peşə təhsili alanlar arasında təcrübə keçdiyi müəssisələrdən iş təklifi alanlar çox olub. Belə bir təklif alsam, mütləq dəyərləndirəcəyəm. Pakistanda da indi daha rahat iş tapacağımı düşünürəm. Bir sözlə, bu diplomla harada yaxşı olsa, orada işləyəcəyəm".




Qrup hazırda "Uğur IT Academy"də təlimlərə qatılır. Həftənin 2 günü təlimdə olduqlarını deyən Adnanın sözlərinə görə, onlara aprel ayından tamamilə təcrübə sahəsində olacaqları bildirilib: "Bizə məlumat verilib ki, aprel ayından həftənin 5 günü "Uğur IT Academy"də olacağıq. İndiyədək ən çox peşə təhsil mərkəzində öyrənmişik. Ümid edirəm, təlim keçdiyimiz müəssisədə də öyrənə biləcəyəm".

### "Tədrisi əyani şəkildə, göstərərək, tətbiq edərək aparırıq"

Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin "Kompüterlərin təmiri və xidmət üzrə texnik" ixtisası üzrə hazırlıq həyata keçirilən qrupda İstehsalat təlimi ustası Elvira Behbudova əcnəbilərlə işin bütün qrup üçün üstünlük qazandırdığını düşünür. O, peşə təhsili müəssisəsində 11 illik iş təcrübəsi olsa da, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində bu tədris ilindən çalışır: "Biz burada, sözün əsl mənasında, peşəkarlar yetişdirməyə çalışırıq. Çünki bütün şirkətlər təcrübə istəyir, işini bilən kadrlar axtarırlar. Ona görə də tədrisi, demək olar ki, əyanı şəkildə, göstərərək, tətbiq edərək aparırıq. Bu cür öyrənmə məzunlarımızın iş tapmasını rahatlaşdırır".

Onun sözlərinə görə, 16 nəfərdən ibarət bu qrupda artıq 7-8 nəfər var ki, əmək bazarında rahatlıqla iş tapacaq.

### Pakistanlı gənc Azərbaycanda aldığı peşə təhsilinin onun gələcək karyerası üçün faydalı olacağını düşünür

17 yaşlı Arman Haydar qohumu olan digər iki pakistanlı tələbə kimi eyni - "Kompüter təmiri və xidmət üzrə texnik" ixtisası üzrə fərqli qrupda təhsil alır. O da tövsiyə ilə buradadır. Bakıdakı ikinci ilində artıq bir peşə sahibi olub. Pakistanlı gənc Azərbaycanda aldığı peşə təhsilinin onun gələcək karyerası üçün faydalı olacağını düşünür: "Burada peşə təhsili aldıqdan sonra Pakistana qayıdacağam. Aldığım təhsil çox əhəmiyyətlidir. Biz burada həm oxuyaraq, həm də tətbiq edərək öyrənirik. Kompüter üzrə mütəxəssislərə dünyanın hər yerində ehtiyac var. Bizim ölkəmizdə də bu işi bilənlər o qədər çox deyil və məncə, gedən kimi iş tapacağam".

Arman Haydar qrup yoldaşları ilə qısa müddətdə qaynayıb-qarışıb. O, daim Azərbaycanca danışmalı olur. Sadəcə qrup yoldaşları ilə də deyil: "Ötən il Azərbaycan dilini öyrəndim. Bunun üçün Rəssamlıq Akademiyasında hazırlıq kurslarına qatıldım. Ancaq kurslardan çox insanlarla danışaraq öyrəndim. Mən dayımla yaşayıram. O, azərbaycanlı ilə evlənib. Odur ki, mənimlə evdə də Azərbaycanca danışan və dil biliyimi inkişaf etdirməyə kömək edənlər var. Burada ancaq pakistanlılarla, qohumlarımla öz dilimizdə danışıram. Qalan vaxt ancaq Azərbaycanca danışıram ki, bu da dili sürətlə öyrənməyimə kömək edir".

### Əcnəbi tələbələrlə bir-birlərini yaxşı başa düşürlər

Qrupun istehsalat təlimi ustası Ellada Rəhimova "Azərbaycan müəllimi"nə deyib ki, Armanın oxuduğu qrupda 17 nəfər təhsil alır. Fəaliyyət göstərdiyi 21 il ərzində ilk dəfə əcnəbi tələbəsi olduğunu deyən istehsalat təlimi ustasının sözlərinə görə, tələbələri ilə bir-birilərini yaxşı başa düşürlər: "İndiyədək Gürcüstan vətəndaşları olan tələbələrimiz olub. Ancaq onlar azərbaycanlı olduğundan dil çətinliyimiz olmayıb. Bu qrupda pakistanlının olması əvvəlcə gözümü qorxutdu, necə anlayacağam, necə başa salacağam deyə narahat oldum. Amma sonradan gördüm ki, dilimizdə ilkin bilikləri var, Azərbaycan dilində müəyyən baza biliyinə sahibdir. Dil səviyyəsi getdikcə artdı və artıq biri-birimizi anlayırıq".

Bu qrupda da asanlıqla iş tapacaq kadrlar yetişir: "Adətən məzunlarımız qısa müddətdə iş tapırlar. Bu qrupda əmək bazarında dərhal iş tapacaq tələbələrimiz var. Hətta tələbələrimizdən 4 nəfər robot hazırlayıb. Mərkəzdə başqa layihələrə də fəal şəkildə qoşulurlar".

### Təhsil aldıqları müəssisədə öz bayraqlarını da görmək istəyiblər

Mərkəzin direktoru səlahiyyətlərini icra edən müavini Səbinə Hacıyevanın sözlərinə görə pakistanlı tələbələr artıq hamı ilə qaynayıb-qarışıblar. Bunu sürətləndirmək üçün müəssisə də əlindən gələni edib:

"Xarici ölkə vətəndaşlarının təhsili üçün müəssisədə hər cür şərait var. Peşə təhsili müəssisələrində tədris rus və Azərbaycan dillərində təşkil edilir. Tələbə uyğun olaraq ixtisasların rus dilində təşkili üçün proqnozlar verilir. Təbii ki, müraciət olarsa, istənilən ixtisas üzrə rus dilində tədrisi təşkil edirik. Hazırda müəssisəmizdə həm rus, həm də Azərbaycan dillərində tədris aparılan qruplarımız var. Qeyd edim ki, rus dilində tədrisin təşkili üçün tələbat hər zaman çox olur".

**Ruhiyyə DAŞSALAHLI**

# Azərbaycanın yeni rəqəmsal arxitekturası

## Strateji baxışdan təhsildə praktik icraya

### Süni intellekt və dövlət idarəçiliyi

Dövlət başçısı süni intellektin dövlət qurumlarında tətbiqinin genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Qeyd edilib ki, inkişaf etmiş ölkələrdə süni intellekt agentləri dövlət məmurlarının gündəlik fəaliyyətinə dəstək göstərir, qərarların effektivliyinin artırılmasına yardım edir. Bu baxımdan, rəhbər vəzifələrdə təmsil olunan şəxslərin süni intellektdən geniş istifadə etməsi zamanın tələbidir.

### Kibertəhlükəsizlik: kritik prioritet

Rəqəmsal transformasiya kibertəhlükəsizlik məsələlərini də ön plana çıxarır. Prezident İlham Əliyev müşavirədə bildirib ki, kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilməlidir: "Biz keçən il çox mütəşəkkil və aqressiv kiberhücuma məruz qalmışıq. Biz onun mənbəyini də bilirik və lazımi tədbirlər də görülmüşdür ki, özümüzü bu ciddi problemlərdən qoruya bilək. Ona görə bu sahəyə ciddi diqqət göstərilməlidir. Bizdə artıq fəaliyyət göstərən Kibertəhlükəsizlik Mərkəzi var, onun işi daim diqqət mərkəzində olmalıdır".




### Ümumi təhsildə rəqəmsal savadlılıq və süni intellekt

Ümumi təhsil pilləsində "İnformatika" fənni üzrə təhsil proqramının müvafiq məzmun xətlərinə əsasən, təhsilalanlar informasiya cəmiyyəti və informasiya mədəniyyəti anlayışlarının mahiyyətini, kibertəhlükəsizlik problemlərini və fərdi məlumatların qorunması yollarını öyrənir, süni intellekt və onun tətbiq sahələrini tanıyır. Bununla yanaşı, həmin fənnin tədrisi zamanı şagirdlər haker hücumlarının məqsədlərini öyrənir, kibercinayətkarlığın formaları və bu cür təhdidlərin qarşısının alınma üsulları barədə məlumat əldə edirlər, təhlükəsiz rəqəmsal davranış vərdişləri qazanırlar. Bu yanaşma həm rəqəmsal savadlılığın artırılmasına, həm də milli kibertəhlükəsizlik strategiyasına uyğun insan kapitalının formalaşdırılmasına xidmət edir.

### Təhsil sisteminin informasiyalaşdırılması və rəqəmsallaşdırılması

Elm və Təhsil Nazirliyindən bildirilib ki, həyata keçirilən tədbirlər məhz bu strateji çağırışa uyğun şəkildə qurulub və təhsilin bütün pillələrini əhatə edir.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda erkən yaşlardan rəqəmsal səriştələrin inkişaf etdirilməsi, İKT-nin təhsildə tətbiqi və distant təhsil imkanlarının genişləndirilməsi əsas prioritet istiqamətlərdən biri kimi müəyyən edilib. Son illər ərzində təhsil sisteminin informasiyalaşdırılması və rəqəmsallaşdırılması istiqamətində mühüm irəliləyişlər əldə olunub. Bu sahədə atılmış məqsədyönlü addımlar nəticəsində şagirdlərin İKT vasitələrinə çıxış imkanları əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb.






### "Rəqəmsal bacarıqlar" layihəsi: praktik yanaşma

Hazırda pilot qaydada tətbiq olunan "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində süni intellekt (Sİ) texnologiyalarının tədrisi isə aşağıdakı siniflər üzrə mərhələli şəkildə həyata keçirilir:

- V sinif üzrə Sİ vizual texnologiyalarına giriş, layihələr üçün şəkil generasiyası üzrə praktik dərslər - mətn sənədləri və təqdimatlar üçün illüstrasiyalar;
- VI sinif üzrə linqvistik dəstək alətləri, mətnlərin orfoqrafiya və üslub baxımından yoxlanılması üçün Sİ-dən istifadə;
- VII sinif üzrə Sİ texnologiyalarının praktik mənimsənilməsi, məktəb layihələri üçün təsvirlərin yaradılması, tədris və gündəlik tapşırıqların həlli zamanı "ChatGPT" və digər Sİ-lərə sorğular (promptlar) tərtib etməyi öyrənmək;
- VIII sinif üzrə multimedia məzmununun yaradılması, videoçarxlar, cizgi filmləri üçün ssenarilərin yazılması və yaradıcı layihələrdə Sİ alətlərindən istifadə;
- IX sinif üzrə veb-texnologiyalar və Sİ, neyron şəbəkələrin köməyi ilə saytların yaradılması - şablonların və maketlərin generasiyası, rəng sxemlərinin seçilməsi, məzmunun avtomatik yaradılması, "vibe-coding", avtomatlaşdırılmış kodlaşdırma, mətndən koda çevirmə və əsas HTML/CSS teqlərinin öyrənilməsi.

### Rəqəmsal gələcəyin təməli: təhsil sistemi

Prezident çıxışında daha sonra bu sahə üzrə kadr hazırlığını əsas vəzifələrdən biri kimi müəyyənləşdirib. Qeyd olunub ki, bu proses uzunmüddətli olacaq və gələcəkdə süni intellekt və rəqəmsal texnologiyalar sahəsində ixtisaslı kadrlara böyük ehtiyac yaranacaq. Bu səbəbdən təhsil sistemində həmin sahəyə daha böyük diqqət yetirilməlidir. Ölkə başçısı bildirib ki, həm Azərbaycanda fəaliyyət göstərən ali məktəblərdə, eyni zamanda, dövlət xətti ilə xaricə göndərilən tələbələr bu ixtisas üzrə peşəkarlığı artırmalıdırlar: "Ona görə nəzərə alsaq ki, bu, uzunmüddətli proses olacaq və bu proses ancaq və ancaq genişlənəcək, gələcəkdə bu sahədə kadrlara böyük ehtiyac olacaq. Təbii ki, orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməlidir".

### Strateji baxışdan praktik icraya

Dövlət başçısının müşavirədə səsləndirdiyi fikirlər və verilən mesajlar bütün dövlət qurumları qarşısında konkret vəzifələr müəyyənləşdirir: rəqəmsal transformasiya konseptual bəyanat səviyyəsində qalmamalı, praktik layihələr və sistemli islahatlarla müşayiət olunmalıdır.

Bu kontekstdə ölkənin təhsil siyasətini həyata keçirən Elm və Təhsil Nazirliyinin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Prezidentin çıxışından göründüyü kimi, rəqəmsal gələcəyin möhkəm təməli məhz təhsil sistemində atılan addımlarla qoyulur.

Bəs görəsən son illər Elm və Təhsil Nazirliyi tərəfindən rəqəmsal texnologiyalar və süni intellekt sahəsində konkret olaraq nə kimi addımlar atılıb, hansı layihələr icra olunub, qarşıda duran fəaliyyət istiqamətləri nələrdir?

Bu yazıda Elm və Təhsil Nazirliyinin verdiyi məlumatlar əsasında aparılan işlərə nəzər salmaq istəyirik.

### İstedadların dəstəklənməsi və rəqəmsal mühit

Bundan əlavə, süni intellekt həllərinin tətbiqi və təşviqi məqsədilə "Məktəblilərarası Milli Hakaton" müsabiqəsi keçirilir. Bu yarış informasiya texnologiyaları sahəsində istedadlı şagirdlərin aşkar edilməsinə, dəstəklənməsinə, onların gələcək inkişafına və sevdiyi peşəyə istiqamətlənməsinə imkan yaradır. Hakatonun əsas məqsədi innovativ və rəqəmsal bacarıqlar üzrə təhsilin keyfiyyətinin və əlçatanlılığının artırılması, o cümlədən texniki, texnoloji və innovasiya yönümlü peşələrə şagirdlərin maraq və meyillərinin yüksəldilməsi, bu sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsinin daha da genişləndirməsi üçün əlverişli şərait yaratmaqdır.

Reallaşdırılan digər layihələrdən biri də müasir təlim texnologiyalarının tədris prosesinə inteqrasiyasının təmin edilməsi, interaktivlik və əlçatanlıq üçün milli onlayn "Rəqəmsal məktəb" təhsil platformasının fəaliyyətə başlamasıdır.

"Rəqəmsal məktəb" platforması hazırda Bakı şəhərində yerləşən ümumi təhsil müəssisələrini əhatə edir. Adıçəkilən platformanın növbəti mərhələdə ölkənin digər bölgələrini də əhatə etməsi planlaşdırılır. "Rəqəmsal məktəb" platforması təhsil sistemində müasir texnologiyaların tətbiqi ilə yanaşı, tədris və idarəetmə proseslərini təkmilləşdirmək, həmçinin təhsildə şəffaflığı artırmaq məqsədi daşıyır.

### Ali təhsildə rəqəmsal transformasiya: 6 ixtisas üzrə kadr hazırlığı

Rəqəmsal transformasiya ali təhsil sistemində də öz əksini tapır. Hazırda ölkəmizin ali təhsil müəssisələrində süni intellekt (Sİ) və əlaqəli texnologiyaların tədrisi mərhələli şəkildə genişləndirilir. 2024-cü ilin dekabr ayında Nazirlər Kabineti tərəfindən ali təhsilin səviyyələri üzrə ixtisasların yenilənmiş təsnifatı təsdiq edilmişdir. Yeni təsnifata informasiya texnologiyaları və süni intellekt sahəsində bir sıra yeni ixtisaslar əlavə olunmuşdur. Belə ki, bakalavriat və magistratura səviyyələrində "Proqram təminatı mühəndisliyi" və "Data analitikası" ixtisasları, magistratura səviyyəsində isə "Kompüter elmləri" ixtisası üzrə "Süni intellekt" və "Biznesin idarə edilməsi" ixtisası üzrə "Biznesdə süni intellekt" ixtisaslaşmaları təsnifata daxil edilmişdir. Nəticədə, hazırda ali təhsilin bakalavriat və magistratura səviyyələrində müvafiq sahələr nəzərə alınmaqla ümumilikdə 6 ixtisas üzrə kadr hazırlığı aparılır.

2025-2026-cı tədris ilində IT ixtisasları (Kompüter elmləri, İnformasiya texnologiyaları, İnformasiya təhlükəsizliyi, Kompüter mühəndisliyi, Data analitikası) üzrə ali təhsilin bakalavriat səviyyəsində ümumilikdə 5500-dən artıq, magistratura səviyyəsində isə 1700-ə yaxın qəbul yerinin ayrılması planlaşdırılmışdır. 2026-2027-ci tədris ilindən etibarən təsnifata yeni əlavə edilmiş "Proqram təminatı mühəndisliyi" ixtisası üzrə də kadr hazırlığı həyata keçiriləcəkdir.

### "Code for Future" texnologiya liderlərini yetişdirən strateji bir platformadır

Elm və Təhsil Nazirliyi tərəfindən icra olunan " Code for Future" layihəsi isə Azərbaycanın rəqəmsal transformasiya hədəflərinə töhfə vermək məqsədilə həyata keçirilən irimiqyaslı təhsil təşəbbüsüdür. Layihənin əsas missiyası ali təhsil müəssisələrində təhsil alan tələbələri müasir əmək bazarının tələblərinə cavab verən praktiki IT bilik və bacarıqlarla təmin etmək, nəzəri biliklərlə sənaye təcrübəsi arasında körpü yaratmaqdır. Bu təşəbbüs, akademik dairələrlə qabaqcıl texnologiya şirkətləri arasında qurulmuş strateji tərəfdaşlıq sayəsində reallaşdırılır.

Layihənin effektivliyini və əlçatanlığını təmin etmək məqsədilə ölkənin nüfuzlu universitetləri (Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Sumqayıt Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Milli Aviasiya Akademiyası) ilə genişmiqyaslı əməkdaşlıq qurulmuşdur. Bu akademik şəbəkə layihənin müxtəlif ixtisaslar üzrə təhsil alan minlərlə tələbəyə çatmasına imkan yaradır. "Code for future" proqramı çərçivəsində IT sahələri üzrə praktiki modullar universitetlərin tədris prosesinə inteqrasiya olunub.

Fəaliyyətə başladığı ilk gündən etibarən "Code for Future" layihəsi əhəmiyyətli nəticələr əldə etmişdir. Belə ki, proqram çərçivəsində 7000-dən çox tələbə uğurla məzun olaraq, öz ixtisas sahələri üzrə dərin texniki biliklərini təsdiq edən sertifikatlarla təmin edilmişdir.

Layihənin tədris proqramının hər zaman aktual və sənaye tələblərinə uyğun qalmasını təmin etmək üçün texnologiya tədrisi sahəsində aparıcı şirkətlərlə tərəfdaşlıq həyata keçirilir. Fəaliyyətin ilkin mərhələsində 4 şirkətlə əməkdaşlıq edilsə də, hazırda proqramın keyfiyyətini və fokusunu daha da artırmaq məqsədilə üç aparıcı tədris mərkəzi (Code Academy, Algoritmika, STEP IT Academy) ilə aktiv əməkdaşlıq davam etdirilir.

Təlim proqramı IT sahəsinin ən tələb olunan istiqamətlərini əhatə edəcək şəkildə hazırlanmışdır. Müxtəlif istiqamətlər üzrə fərqli dərs saatlarını əhatə edən intensiv proqram tələbələrin əsas universitet dərsləri ilə kəsişmə yaratmayacaq çevik bir cədvəl əsasında təşkil olunur və zərurət yarandıqda müvafiq fənlərlə əvəzlənir. Tədris olunan əsas istiqamətlər süni intellekt əsaslı proqramlaşdırma, veb-proqramlaşdırma, sistem inzibatçılığı, kibertəhlükəsizliyin əsasları, IT mütəxəssisliyi (Texniki dəstək), QA (Quality Assurance) mühəndisliyi, AutoCAD və "Solidworks", müəllimlər üçün informatika, rəqəmsal bacarıqların inkişafıdır.

"Code for Future" layihəsi sadəcə bir tədris proqramı deyil, eyni zamanda Azərbaycanın gələcək texnologiya liderlərini yetişdirən strateji bir platformadır. Universitet-sənaye əməkdaşlığının uğurlu modeli olan bu təşəbbüs, minlərlə gəncə rəqabətədavamlı karyera qurmaq üçün unikal imkanlar təqdim edir və ölkənin innovasiya ekosisteminin inkişafına birbaşa xidmət edir.

### Gələcək perspektivdə…

Elm və Təhsil Nazirliyi tərəfindən verilən məlumatda həmçinin bildirilir ki, gələcək perspektivdə süni intellekt və əlaqəli sahələr üzrə yeni ixtisasların yaradılması, mövcud təhsil proqramlarının beynəlxalq təcrübəyə uyğun olaraq yenilənməsi və multidissiplinar yanaşmanın tətbiqi nəzərdə tutulur. Bu istiqamətdə əmək bazarının tələbləri, texnoloji inkişaf trendləri və strateji prioritetlər nəzərə alınmaqla müvafiq planlaşdırma işləri davam etdirilir. Hazırda Elm və Təhsil Nazirliyinin aidiyyəti qurumları tərəfindən "Süni intellekt" həllərinin tətbiqi istiqamətində ilkin hazırlıq və növbəti dövr üçün təhlil və planlaşdırma işləri aparılmaqdadır.




### Strateji baxış və praktik addımların vəhdəti

Beləliklə, Prezident İlham Əliyevin "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə səsləndirdiyi strateji çağırışlar təhsil sistemində konkret və ardıcıl addımlarla müşayiət olunur. Dövlət idarəçiliyində süni intellektin tətbiqi, kibertəhlükəsizliyin gücləndirilməsi və insan kapitalının inkişafı bir-birini tamamlayan vahid siyasətin tərkib hissəsidir.Və göründüyü kimi, rəqəmsal transformasiya artıq seçim deyil, milli inkişafın zəruri şərtidir. Azərbaycan da bu istiqamətdə ardıcıl, məqsədyönlü və strateji addımlar atır. Məktəbdən ali təhsilə qədər qurulan bu sistemli yanaşma ölkəmizin rəqəmsal gələcəyinin möhkəm təməlinin formalaşdırılmasında mühüm rol oynayacaq.

**Samirə KƏRİMOVA**

# "Şəhərsalma və Memarlıq İli"

Fakültə olaraq biz təkcə kadr yetişdirməklə kifayətlənmirik. Hələ uzun illər əvvəl, digər ali məktəblər memarlıq təhsilinə yeni başladığı vaxtlarda da Azərbaycanda memarlıq üzrə sistemli və elmi əsaslara söykənən tədris ənənəsini biz qurmuşuq.

Cənab Prezidentin, Ali Baş Komandan İlham Əliyevin "...Əziz Şuşa, biz səni dirçəldəcəyik" ifadəsini səsləndirdiyi tarixi bəyanat bizim üçün bir siqnal oldu. 2021-ci ildə Beynəlxalq abidələr gününə həsr olunmuş "Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələri"nin təqdimat mərasimini keçirdik. Bu layihədə Şuşanın ayrı-ayrı memarlıq abidələrinin arxivlərdən eskizləri, cizgiləri, fotoşəkilləri və s. kimi məlumatlar götürülərək onların tarixi, memarlıq-dekorativ xüsusuyyətləri tədqiq edilib, internet resursları vasitəsilə indiki vəziyyəti araşdırılıb və eskiz-bərpa layihələri işlənib. Sonra biz Şuşaya və Ağdama səfər etdik. "Ağdam nümunəsində Qarabağın davamlı inkişafı" layihəsində işləyən tələbələrimizi Ağdama, "Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz" layihələrində işləyən tələbələrimizi isə Şuşaya apardıq. Onlar yeni nəfəs verdikləri o abidələri, tikililəri öz gözləri ilə gördülər, əlləri ilə toxundular, nə qədər şərəfli bir işlə məşğul olduqlarını bir daha hiss etdilər.

## Azərbaycanda memarlıq təhsilinin konseptual transformasiyası:

## Dəyərlər, çağırışlar, perspektivlər



**II YAZI**

Əvvəli qəzetin 24 yanvar tarixli sayında

Azad olunmuş ərazilərdə bu gün gerçəkləşən şəhərsalma layihələri artıq təkcə fiziki bərpa deyil, həm də milli kimliyin, tarixi yaddaşın və müasir memarlığın harmoniyasını əks etdirən unikal nümunələrdir. Ağalı "ağıllı kənd" konsepti, Füzuli və Laçın şəhərlərinin baş planları, Şuşada tarixi irsin qorunması ilə yanaşı, müasir tələblərə cavab verən məkanların yaradılması - bunların hər birində memar məzunlarımızın imzası var.

Bizim üçün xüsusilə qürurverici məqamlardan biri də budur ki, bu layihələrdə çalışan memarlar yalnız texniki icraçı deyil, həm də məkanın ruhunu anlayan, onun tarixi-mədəni kontekstinə həssas yanaşan yaradıcı peşə sahibləridir. Azad olunmuş ərazilərdə baş verən memarlıq inkişafı təkcə tikinti və layihələndirmə deyil, fakültənin illərlə formalaşdırdığı peşəkarlığın, milli məsuliyyətin və qabaqcıl memarlıq dünyagörüşünün təcəssümüdür.

2017-ci ildən "Şəhərsalma" ixtisası üzrə mütəxəssis hazırlığına başlamağımız Azərbaycan üçün çox vacib və vaxtında atılmış strateji addım oldu. Çünki ölkəmiz sürətlə urbanizasiya mərhələsinə daxil olurdu və bu prosesin elmi əsaslarla, planlı və davamlı şəkildə idarə olunması zərurəti yaranmışdı. Eyni zamanda, ərazilərin bərpası, regional inkişaf strategiyalarının hazırlanması, ekoloji və sosial baxımdan dayanıqlı şəhər mühitlərinin qurulması üçün artıq sadəcə memar və mühəndis deyil, məhz şəhərsalma üzrə ixtisaslaşmış mütəxəssislərə ehtiyac duyulurdu.

Azad edilmiş ərazilərdə aparılan yenidənqurma işləri bu ehtiyacın nə qədər real və vacib olduğunu bir daha sübut etdi. Bu gün biz həm şəhər planlaması, həm infrastrukturun bölgə xüsusiyyətlərinə uyğunlaşdırılması, həm də ekoloji tarazlığın qorunması məsələlərində professional yanaşmanın nə qədər önəmli olduğunu yaşayaraq görürük. Məhz bu səbəbdən "Şəhərsalma" ixtisası üzrə yetişdirdiyimiz gənclər həm bu günə, həm də gələcəyə cavab verəcək bilik və bacarıqlara sahib olmalıdırlar. Memarlıq fakültəsi bu istiqamətdə də məsuliyyəti üzərinə götürdü və bu gün artıq ölkəmizdə şəhərsalma sahəsində düşünən, araşdıran və tətbiq edən yeni nəsil formalaşmağa başlayıb. Bu isə Azərbaycanın gələcək şəhər mühitlərinin daha sağlam, funksional və insan yönümlü olmasına zəmanət verir.

Memarlıq fakültəsi daim beynəlxalq inteqrasiyaya xüsusi önəm verir. UNESCO, İtaliya, Avstriya, Fransa, ABŞ və digər ölkələrin aparıcı memarlıq məktəbləri ilə əməkdaşlıq artıq uzun illərə söykənir. Son illər Türkiyə ilə də sağlam və faydalı əlaqələr qururuq. Bu əməkdaşlıqların həm tələbələrimiz, həm də müəllim heyətimiz üçün çoxşaxəli faydaları olub. İlk növbədə, bu əlaqələr vasitəsilə biz tədris prosesini qlobal miqyasda qəbul edilən meyarlarla uyğunlaşdırmışıq. Müxtəlif ölkələrdə təşkil olunan beynəlxalq layihələr, yay məktəbləri, ustad dərsləri və vörkşoplarda iştirak müəllim və tələbələrimizin dünyagörüşünü genişləndirir, yeni yanaşmalarla tanış olmağa şərait yaradır. Bu cür təcrübə mübadiləsi təkcə nəzəri biliklərin deyil, həm də praktiki bacarıqların inkişafı üçün mühüm platformadır.

Tələbələrimiz üçün bu əməkdaşlıqlar beynəlxalq layihələrdə iştirak və portfoliolarının zənginləşdirilməsi deməkdir. Bu gün artıq bizim tələbələrimiz Fransanın fərqli şəhərlərində və Şərqi Avropa ölkələrində, Florensiyada, Kopenhagendə keçirilən beynəlxalq tədbirlərdə AzMİU-nu təmsil edirlər. Yavər Rzayev, Zaur Qurbanəliyev, Sayilə Əliyeva kimi məzunlarımız ABŞ-də, Üzeyir Qasımov isə İtaliyada tələb olunan memar statusu qazanmışdır. Müəllim heyətimiz üçün isə bu əlaqələr elmi-tədqiqatların genişləndirilməsi, birgə nəşrlər, konfrans çıxışları və yeni tədris metodlarının tətbiqi baxımından böyük imkanlar açır. Eyni zamanda, bu əməkdaşlıqlar sayəsində biz fakültədə beynəlxalq ekspertləri, xarici memarlıq məktəblərinin tanınmış nümayəndələrini tez-tez qonaq edirik. Bu isə təhsilin keyfiyyətinə, tələbələrin motivasiyasına və ümumilikdə fakültənin akademik mühitinə çox müsbət təsir göstərir. Məqsədimiz daim açıq, qlobal və gələcəyə yönəlmiş bir memarlıq məktəbi olmaqdır.

Fakültə məzunlarının buraxılış işlərinin müsabiqələrində əldə etdiyi uğurlar, ilk növbədə, burada verilən memarlıq təhsilinin yüksək səviyyəsinin və beynəlxalq tələblərə uyğunluğunun bariz göstəricisidir. Bu uğurlar təsadüfi deyil - onların arxasında ciddi tədris strategiyası, uzunmüddətli akademik zəhmət, metodik hazırlıq və layihə əsaslı düşüncə tərzinin formalaşdırılması dayanır. Buraxılış işlərində tələbələr yalnız nəzəri biliklərini yox, həm də dörd il ərzində qazandıqları praktiki bacarıqları, analitik və yaradıcı düşüncə imkanlarını birləşdirirlər.

Bu ilin əvvəlində Şəhərsalma və Arxitektura Komitəsinin "Təməl" müsabiqəsinin təqdimatında çox qürurverici anlar yaşandı: demək olar ki, bütün nominasiyalar üzrə qalib yerləri bizim məzunlarımız qazandı. Laçın rayonu, Minkənd kəndinin yenidən qurulması, "Xankəndi şəhəri, təhsil elm və mədəniyyət binasının fasadının yenidən qurulması", Bakı şəhəri, "Mərkəzi Nəbatat Bağının yenidənqurma", Cəbrayıl şəhərində məscid, Laçın Beynəlxalq Hava Limanının layihələri səhnədə qalib elan olunanda çox böyük qürur hissi keçirdik. Qaliblər son 10-20 ildə fakültəmizi bitirən istedadlı məzunlarımızdır.

Əlbəttə ki, bunlar yeganə nümunələr deyil. İllərdir tələbələrimizin işləri dünyanın müxtəlif nüfuzlu müsabiqələrində fəxri yerlərə layiq görülürsə, bu, həm də onların qlobal memarlıq auditoriyası tərəfindən qəbul edildiyinin, beynəlxalq platformalarda öz sözünü deyə biləcək gənc memarlar yetişdirə bildiyimizin, tədris sistemimiz artıq lokal çərçivədən çıxmasının sübutudur. Bu, həm də müəllim kollektivi üçün böyük qürur mənbəyidir, çünki bu uğurlar eyni zamanda müəllimlərin peşəkarlığının, onların tələbələrə necə istiqamət verdiklərinin nəticəsidir.



Bu məqsədlə fakültədə layihə studiyalarında real kontekstlərə əsaslanan tapşırıqlar, şəhərsalmaya dair praktiki simulyasiyalar və yerli-əcnəbi mütəxəssislərin iştirakı ilə ustad dərsləri təşkil olunur. Bu, yanaşma tələbələrin problem həlletmə qabiliyyətini, komanda işinə uyğunlaşmasını və peşəkar münasibətlərini formalaşdırır.

Eyni zamanda bu il, universitetimizin 50 illiyi ərəfəsində fakültədə çox faydalı layihəyə start verilmişdir - tələbələrimizin tanınmış memarların layihə studiyaları ilə tanışlığı və yerində master-klasların təşkili. Burada tələbələrimiz real iş mühiti ilə təmasda olur, ölkənin ən nüfuzlu və gənc memarlarının layihələri, iş prinsipləri, yanaşmaları ilə tanış olur, ünsiyyət qururlar. Qısa müddətdə əməkdar memarlar Elbay Qasımzadə, Nəriman İmaməliyev, Xəlil Cəfərov kimi peşəkar, eyni zamanda MANARCH, Büro-mühit və Dizayn-büro kimi gənc memarların rəhbərlik etdiyi studiyalara səfərlər xüsusi qeyd olunmalıdır.



> Azad olunmuş ərazilərdə bu gün gerçəkləşən şəhərsalma layihələri artıq təkcə fiziki bərpa deyil, həm də milli kimliyin, tarixi yaddaşın və müasir memarlığın harmoniyasını əks etdirən unikal nümunələrdir. Ağalı "ağıllı kənd" konsepti, Füzuli və Laçın şəhərlərinin baş planları, Şuşada tarixi irsin qorunması ilə yanaşı, müasir tələblərə cavab verən məkanların yaradılması - bunların hər birində memar məzunlarımızın imzası var.

AzMİU-nun Memarlıq fakültəsində tətbiq olunmuş beynəlxalq təcrübələrə gəldikdə isə əlbəttə ki, biz bu təcrübələri olduğu kimi tətbiq etmirik. Biz ən yaxşı təcrübələri öyrənib, analiz edib, mümkün üstünlükləri özümüzə uyğunlaşdırırıq və sonra tətbiq edirik. Bunlar arasında Avropanın qabaqcıl memarlıq məktəblərinin - məsələn, Lissabon, Politecnico di Milano və ya Türkiyənin OTDU, İTU kimi nüfuzlu təhsil ocaqlarının idarəetmə modelləri bizim üçün həm təcrübə, həm də təhlil obyekti olub. Bu məktəblərdə olduğu kimi fakültədə kurikulumlarımızda interdisiplinar yanaşmanı gücləndirmişik, layihə əsaslı təhsilin payını artırmışıq. Məsələn, müəyyən modeldə tələbənin fərdi yaradıcılığı önə çəkilirsə, biz də son illərdə məhz bu istiqamətdə - tələbəyə daha çox azadlıq və məsuliyyət verməklə - fərdi portfolio və kompleks buraxılış layihələri üzərində çalışılır.

Fakültədə idarəetmədə isə şəffaflıq və komandaya əsaslanan qərarvermə sistemi tətbiq edilir. Fakültənin bütün struktur bölmələri qərarların formalaşmasında iştirak edir, müəllimlərin təşəbbüsləri dəstəklənir və dinlənilir. Həm nəzəri, həm praktik, həm də idarəetmə təcrübəsinin bir araya gəlməsi fakültənin inkişafına, beynəlxalq akkreditasiyaların əldə olunmasına və tələbələrimizin uğurlarına birbaşa təsir göstərir. Memarlıq fakültəsi bu balansı qorumağa və daim təkmilləşdirməyə çalışır.

Vurğulamaq istərdik ki, XXI əsrin memarı artıq yalnız estetikaya və texniki biliklərə sahib olan bir peşəkar deyil. Bu günün memarı sosial məsuliyyət daşıyan, ekoloji düşüncəyə malik, texnologiyanı yaradıcılıqla birləşdirə bilən, multidisiplinar yanaşmanı mənimsəmiş və davamlı inkişaf prinsiplərini həyat tərzinə çevirmiş şəxs olmalıdır. O, həm qlobal trendləri, həm də lokal konteksti dərk etməli, şəhərlərin və cəmiyyətlərin ehtiyaclarını görməyi və cavab verməyi bacarmalıdır.

Memarlıq yalnız vizual-estetik təsir gücü ilə deyil, həm də elmi yanaşma, sosial məsuliyyət və dəyərlər sistemi ilə müəyyən olunur. Müasir dövrdə memarın fəaliyyət sahəsi eskiz və maketlərlə məhdudlaşmır; o, paralel olaraq sosiologiya, demoqrafiya, ekologiya, iqtisadiyyat, rəqəmsal texnologiyalar və digər elmlərin kəsişməsində formalaşan biliklərə yiyələnməlidir. Çünki memarlıq mahiyyət etibarilə insan həyatının keyfiyyətini, şəhərlərin funksional davamlılığını və mədəni kimliyin qorunmasını təmin edən kompleks bir sistemdir. Bu sistemdə etik davranış, milli ənənələrə sadiqlik, müəllif hüquqlarına hörmət, ictimai maraqlara xidmət, sosial ədalət və ətraf mühitə həssaslıq kimi dəyərləri və kollektiv əmək vərdişləri memarın peşəkar kimliyini müəyyənləşdirən fundamental prinsiplərdir. Bu yanaşma dayanıqlı şəhər mühitinin formalaşdırılmasının əsas şərtidir.

Dünya memarlığında isə sürətlə dəyişən tendensiyalar - süni intellektdən biomimetikaya, rəqəmsal dizayn alətlərindən ekoloji materiallara qədər innovativ yanaşmalar - memarlığın təkcə texniki deyil, həm də fəlsəfi aspektlərini yenidən düşünməyi zəruri edir. Belə bir şəraitdə gənc memar yalnız yeniliklərə açıq fikirli olmaqla kifayələnməməli, həm də biliklərini inteqrativ müstəvidə tətbiq etməyi bacarmalıdır. Şübhəsizdir ki, bu, memarlığın peşə olmaqdan çıxaraq bir həyat tərzinə, daha dəqiq desək, insanın, şəhərin və bütövlükdə cəmiyyətin gələcəyini formalaşdıran strateji yaradıcılıq missiyasına çevrilməsi deməkdir.

Sonda bir neçə konseptual və praktik təkliflərin yer aldığı çağırış və perspektivləri səsləndirmək istərdim:

*1. Layihə əsaslı tədrisi daha da genişləndirmək:*

Tələbələr real kontekstdə işləməli, multidissiplinar layihələr həyata keçirməli və fərqli məktəblərin metodlarını sintez etməlidirlər.

Bu, tələbələrin həm texniki, həm estetik, həm də sosial məsuliyyət bacarıqlarını inkişaf etdirəcək.

*2. Rəqəmsal texnologiyaların və innovativ vasitələrin tədrisə inteqrasiyasını genişləndirmək;*

3D modelləmə, BIM (Building Information Modeling), lazer skanerlər, süni intellekt alətləri, ekoloji simulyasiyalar tədrisə daxil edilməlidir.

Bu, tələbələri qlobal memarlıq standartlarına uyğun yetişdirəcək və müasir praktikaya hazırlayacaq.

*3. Milli-mədəni konteksti qoruyan və təşviq edən layihələrə üstünlük vermək:*

Tələbələr işğaldan azad edilmiş ərazilərdəki bərpa və şəhərsalma layihələrinə cəlb olunmalıdır.

Bu, həm milli memarlıq irsini qorumağa, həm də tələbələrin vətənpərvərlik və sosial məsuliyyət hissini gücləndirməyə xidmət edəcək.

*4. Beynəlxalq inteqrasiya və mübadilə proqramlarını artırmaq:*

Xarici universitetlərlə birgə vörkşoplar, yay məktəbləri və qonaq ustad dərsləri daha da genişləndirilməlidir.

Bu, tələbələrin qlobal memarlıq diskursuna inteqrasiya olmasına və Azərbaycan memarlığının beynəlxalq səviyyədə tanınmasına kömək edəcək.

*5. Ekoloji və dayanıqlı şəhərsalma yanaşmalarının tədrisə daha geniş inteqrasiyasını təmin etmək:*

Urbanizasiya və regional inkişaf planlarında ekoloji balansı, ağıllı şəhər texnologiyalarını və dayanıqlı materialları nəzərə alan layihələr ön plana çıxarılmalıdır.

Bu, memarlığın sosial və ekoloji məsuliyyətini artıracaq, gələcək şəhərlərin sağlam inkişafını təmin edəcək.

*6. Tədris proqramlarında multidisiplinar yanaşmanı genişləndirmək:*

Memarlıq yalnız estetik və texniki bacarıq deyil, həm də sosial, iqtisadi, ekoloji və texnoloji kontekstdə formalaşan sahə kimi təqdim edilməlidir.

Bu, tələbələrin kompleks düşünmə qabiliyyətini inkişaf etdirəcək və innovativ layihələrin yaranmasını stimullaşdıracaq.

*7. Məzunların yerli və beynəlxalq layihələrdə aktiv iştirakını təmin etmək:*

Bu, məzun olmağa hazırlaşan, nəzəri bilikləri mənimsəmiş tələbələrin təcrübə zamanı praktiki vərdişlərini daha da möhkəmləndirməyə, fakültə məzunlarını strateji layihələrə cəlb etməyə, onların praktiki təcrübəsini artırmağa və ölkədə memarlığın keyfiyyətini yüksəltməyə, eyni zamanda tərəfdaşlarımızın tədrisə peşəkar ekspert kimi cəlb edilməsinə geniş imkan yaradacaq.

**Zahidə MƏMMƏDOVA,**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, Memarlıq fakültəsinin dekanı, professor, Əməkdar memar*



# ARTİ xəbərdarlıq edir

**Rəsmi olmayan mənbələrdə yayılan məlumatların ARTİ ilə heç bir əlaqəsi yoxdur**

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

Son günlər sosial şəbəkələrdə və digər rəsmi olmayan platformalarda təhsilverənlərin sertifikatlaşdırılması prosesinə hazırlıq adı altında sınaq imtahanlarının təşkili, test tapşırıqlarının təqdim edilməsi və digər xidmətlər təklif edən elanlar yayımlanır. Yayılan məlumatlarda həmin fəaliyyətlərin Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ) və ya bu qurumla əməkdaşlıq edən mütəxəssislər tərəfindən həyata keçirildiyi qeyd olunur.

Bir daha bildiririk ki, ARTİ-nin bütün fəaliyyəti, o cümlədən əməkdaşlıq etdiyi ekspertlər və qurumlar haqqında məlumatlar yalnız qurumun rəsmi internet səhifəsi və rəsmi sosial media hesabları vasitəsilə ictimaiyyətə təqdim olunur. Rəsmi olmayan mənbələrdə yayılan məlumatların ARTİ ilə heç bir əlaqəsi yoxdur. Vətəndaşları bu məlumatlara ciddi yanaşmamağa çağırırıq.

# Müsabiqə və olimpiada qalibləri mükafatlandırılıb

**Respublika Fənn Müsabiqələri və Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadası qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**





Elm və Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Təhsil İnstitutunun (ARTİ), Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşkilatçılığı ilə keçirilən mərasimdə MÜTDA-nın direktor müavini, BŞTİ-nin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova, ARTİ-nin direktor müavini Fuad Qarayev, İnstitutun Xüsusi istedadlı uşaqlarla iş şöbəsinin müdiri Tural Alışov, MÜTDA-nın Uşaq Rifahı və İnkişafı şöbəsinin müdiri İlahə Rəsulova, BŞTİ-nin müvafiq struktur bölmə rəhbərləri, məktəb direktorları, müsabiqə və olimpiadada qalib gələn şagirdlər iştirak ediblər.

Qalibləri təbrik edən MÜTDA-nın direktor müavini, BŞTİ-nin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova bildirib ki, istedadlı şagirdləri vaxtında aşkara çıxarmaq, onların yaradıcılığa və elmə olan marağını artırmaq təhsilin əsas hədəflərindən biridir. N.Hüseynova bu cür müsabiqə və olimpiadaların şagirdlərin bilik və bacarıqlarının inkişafında, onların elmi potensialının üzə çıxarılmasında, yaradıcı və analitik düşünmə qabiliyyətlərinin formalaşmasında mühüm rol oynadığını söyləyib.

ARTİ-nin direktor müavini Fuad Qarayev olimpiada və müsabiqələrin ölkədə istedadlı şagirdlərin aşkarlanması və dəstəklənməsi baxımından əhəmiyyətindən danışıb, bu yarışların təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət etdiyini və gələcək uğurlar üçün mühüm zəmin yaratdığını vurğulayıb.

Daha sonra Respublika Fənn Müsabiqələri və Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadasında yüksək nəticə göstərmiş şagirdlərə diplom və mükafatlar təqdim olunub.

Mərasimdə 3 və 8 nömrəli Uşaq-Gənclər İnkişaf mərkəzlərinin dərnək üzvlərinin ifasında kompozisiyalar nümayiş etdirilib.

# Şagirdlər innovativ tədris mühitində

*STEAM Azərbaycanın təşkilatçılığı və NARGIS FUND dəstəyi ilə 11 Fevral — Beynəlxalq Qadınlar və Qızlar Elmdə Gününə həsr olunmuş tədbir keçirilib*





Tədbirin keçirilməsində məqsəd elm və texnologiya sahələrində qadın və qızların rolunu vurğulamaq, şagirdləri STEAM istiqamətlərinə təşviq etmək və ilhamverici nümunələri ictimaiyyətə təqdim etmək olub.

STEAM Azərbaycanın rəhbəri İqrar Nəzərov çıxış edərək qadınların elm, texnologiya və innovasiya sahəsində artan rolundan, bu istiqamətdə həyata keçirilən layihələrdən və gələcək hədəflərdən bəhs edib.

Tədbir çərçivəsində 4 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin solistlərinin təqdimatında rəqs nömrələri nümayiş olunub. Ardınca təlimçi Şəfiqə Çırağının təqdimatında “Uğur hekayəsi” sessiyası keçirilib.

Tədbirin davamında şagirdlər STEAM İnnovasiya Mərkəzində ekskursiyada iştirak edərək innovativ tədris mühiti ilə yaxından tanış olublar.

Gün əyləncəli fəaliyyətlər və interaktiv sessiyalarla yekunlaşıb.

# Tələbələr üçün ixtisas yönümlü qış düşərgələri başa çatıb





“Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyi və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə tələbələr üçün 5-9 fevral tarixlərində keçirilən ənənəvi ixtisas yönümlü qış düşərgələri yekunlaşıb.

“Təhsil” İstirahət Mərkəzində baş tutan düşərgələrin əsas məqsədi iştirakçıların ixtisas biliklərinin dərinləşdirilməsi, analitik və tənqidi düşünmə, problem həll etmə, innovativ yanaşma, eləcə də liderlik və komanda işi bacarıqlarının inkişaf etdirilməsi olub. Layihə çərçivəsində gənclərin gələcək akademik və peşəkar fəaliyyətə hazırlıq səviyyəsinin artırılması prioritet kimi müəyyən edilib.

Cari il üzrə düşərgələr iki istiqaməti əhatə edib. Riyaziyyat sahəsi üzrə “MathCamp2026” layihəsi “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyi, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı və “PathtoMath” Həvəskar Riyaziyyatçılar Klubunun birgə təşkilatçılığı ilə həyata keçirilib. Texnologiya və mühəndislik istiqamətləri üzrə “TechCamp2026” düşərgəsi isə “ESTIEM LG Baku” və “EESTEC LG Baku” təşkilatlarının tərəfdaşlığı çərçivəsində təşkil olunub.

Düşərgələrdə seçim mərhələsindən keçmiş riyaziyyat, texnologiya, mühəndislik və əlaqəli sahələr üzrə təhsil alan əlli nəfərə yaxın perspektivli tələbə iştirak edib. Proqram çərçivəsində ixtisaslaşmış təlimlər, praktiki məşğələlər, layihə əsaslı fəaliyyətlər və mentorluq görüşləri keçirilib.

Qeyd edək ki, “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyi gənclərin bilik və bacarıqlarının inkişafına yönəlmiş tədris və innovasiya yönümlü təşəbbüsləri ardıcıl şəkildə uğurla həyata keçirir. Təşkilatın bu istiqamətdəki fəaliyyəti gənclərin intellektual inkişafının dəstəklənməsi, sosial fəallığının artırılması və cəmiyyətə inteqrasiyasının gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

# Paytaxt məktəblərində “Oxu dəqiqələri”

Paytaxt məktəblərində 3-9-cu siniflər üzrə “Oxu dəqiqələri” keçirilir.

“Oxu dəqiqələri”nin keçirilməsində əsas məqsəd Azərbaycan dili dərslərində kollektiv mütaliəni təşkil etmək, şagirdlərin mütaliəyə marağını daha da artırmaq, yeniyetmə və gənclərin oxu bacarıqlarını inkişaf etdirmək və nitq vərdişlərini təkmilləşdirməkdən ibarətdir.

“Oxu dəqiqələri” çərçivəsində siniflər üzrə tövsiyə edilən bədii ədəbiyyat nümunələri əsasında şagirdlərin iştirakı ilə müzakirələr aparılır. Müəllim sinif üzrə öncədən müəyyən olunmuş kitab və onun müəllifi barədə şagirdlərə məlumat verir. Sonra şagirdlər növbə ilə kitabdan kiçik bir hissəni səsli oxuyur və bütün sinif oxunan kitabı birlikdə dinləyir.

Qeyd edək ki, ümumi təhsil müəssisələrində mütaliə işinin təşkili, şagirdlərin mütaliəyə həvəsinin daha da gücləndirilməsi yönündə müxtəlif tədbirlər görülür. Uşaqların mənəvi zənginləşməsində, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində, həmçinin mütaliə üçün motivasiyanın daha da artırılmasında “Oxu dəqiqələri”nin mühüm rolu var.



Bugünkü dünya daha çox qarşılıqlı asılılıq, informasiya axını və mədəniyyətlərarası təmasla xarakterizə olunur. Qloballaşma prosesi təkcə iqtisadi və texnoloji sahələri deyil, eyni zamanda insanın formalaşmasında ən mühüm amil olan təhsil sistemini də əsaslı şəkildə dəyişir. Belə bir dövrdə təkcə milli çərçivələrlə məhdudlaşan, yalnız lokal bilik və bacarıqlara əsaslanan təhsil modeli artıq yetərli görünmür. İnsanların dünya vətəndaşı kimi yetişdirilməsi, qlobal problemləri anlamaq və onlara cavab vermək bacarığı qazanması müasir dövrün əsas təhsil çağırışlarına çevrilir. Məhz bu ehtiyacdan doğaraq "qlobal təhsil" anlayışı formalaşıb və günümüzdə təhsil siyasətçiləri, alimlər, müəllimlər üçün vacib konsepsiyalardan birinə çevrilib. Qlobal təhsil - insanı təkcə akademik deyil, həm də etik, mədəni və sosial baxımdan hazırlayan, onu həm yerli, həm də qlobal reallıqlara cavab verə bilən fərd kimi yetişdirməyə çalışan bir yanaşmadır. Bu yazıda biz qlobal təhsilin nə olduğu, onun əhəmiyyəti, müasir düşüncə sahiblərinin bu anlayışa münasibəti, həmçinin onun necə inkişaf etdirilə biləcəyi ilə bağlı bir pedaqoji etüd təqdim edəcəyik.

# Qlobal çağırışlar və təhsil düşüncələri

pedaqoji etüd

**Ənvər ABBASOV,**

*Bakı Slavyan Universitetinin rektorunun məsləhətçisi, pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim*



### Qlobal təhsil nədir və onun əsas prinsipləri hansılardır?

"Qlobal təhsil" anlayışı ilk baxışda yeni və mücərrəd təsir bağışlasa da, əslində kökləri insan hüquqları, sülh, mədəni müxtəliflik və qarşılıqlı məsuliyyət kimi fundamental dəyərlərə söykənir. Bu anlayış XX əsrin sonlarında qloballaşma proseslərinin sürətlənməsi ilə daha geniş yayılmağa başlamışdır. UNESCO, OECD kimi beynəlxalq təşkilatlar bu sahədə aparıcı mövqe tutaraq, qlobal təhsilin məqsədlərini və prinsiplərini müəyyənləşdirmişlər. Onların yanaşmasına görə, qlobal təhsil insanların dünyanı dərk etməsinə, qlobal problemləri anlamağa və bu problemlərin həllində yardımçı ola bilən təhsil formasıdır.

Qlobal təhsil, hər şeydən öncə, fərdin dünyaya baxışını formalaşdırır. O, şagirdlərə və tələbələrə yalnız coğrafi və tarixi biliklər deyil, həm də mədəniyyətlərarası anlaşma, ekoloji şüur, sülhə yönəlik düşüncə və sosial ədalət kimi sahələrdə düşünmə bacarıqları aşılayır. Bu baxımdan qlobal təhsil sadəcə yeni bir fənn və ya proqram deyil, daha çox ümumi təhsil fəlsəfəsinin transformasiyasıdır. Yəni bu, hansısa ayrıca dərs deyil, bütün təhsil mühitinə inteqrasiya olunmalı olan bir yanaşmadır.

İlkin araşdırmalar onu göstərir ki, qlobal təhsil haqqında danışarkən, ilk növbədə, onun prinsiplərinə diqqət yetirmək mühüm əhəmiyyət kəsb edir. Son qənaətlər də ondan ibarətdir ki, qlobal təhsilin bir neçə əsas prinsipi vardır. Və bu prinsiplər onun mahiyyətini dərk etmək baxımından xüsusi önəm daşıyır. Onları nəzərdən keçirək.

*1. Beynəlxalq məsuliyyət və həmrəylik.* Qlobal təhsil insanları yalnız öz ölkəsinə deyil, bütövlükdə bəşəriyyətə münasibətdə məsuliyyətli fərd kimi yetişdirməyə çalışır. Bu prinsipə görə, bir ölkədəki sosial, ekoloji və ya iqtisadi problem digər ölkələrin insanlarını da maraqlandırmalıdır.

*2. Mədəni müxtəlifliyin qəbul olunması.* Qlobal təhsil multikultural dəyərləri təbliğ edir, stereotiplərin və ayrı-seçkiliyin aradan qaldırılmasına yardım edir. Fərqli dillərə, dinlərə və həyat tərzinə hörmətlə yanaşmağı, qarşılıqlı anlaşmanı gücləndirir.

*3. Ədalət və bərabərlik.* Sosial və iqtisadi bərabərsizliyə qarşı tənqidi baxış, gender bərabərliyi və insan hüquqları qlobal təhsilin təməlini təşkil edir. Bu, eyni zamanda, davamlı inkişaf məqsədlərinə uyğun gəlir.

*4. Sülh və zorakılıqdan uzaq mədəniyyət.* Qlobal təhsil münaqişələrin dinc yolla həllinə, empatiya və dialoq mədəniyyətinə əsaslanır. Şagirdlərə münaqişə şəraitində alternativ yollar axtarma bacarıqları öyrədilir.

*5. Davamlılıq və ekoloji məsuliyyət.* İqlim dəyişikliyi, resursların tükənməsi, ətraf mühitin qorunması kimi məsələlər bu təhsilin mühüm tərkib hissəsi kimi istifadə olunur. Fərdlərin planetin gələcəyi üçün məsuliyyət hissi daşıması təşviq edilir.

Qlobal təhsil, eyni zamanda, tənqidi düşüncə, analitik qabiliyyət, media savadlılığı və informasiyanın düzgün dəyərləndirilməsi kimi bacarıqları da inkişaf etdirir. Beləliklə, bu yanaşma yalnız bilik ötürmək deyil, həm də təhsil alanı formalaşdırmaq və aktiv vətəndaş mövqeyini gücləndirmək məqsədi daşıyır.

Məktəblərdə və ali təhsil müəssisələrində bu prinsiplərin tədris prosesinə necə inteqrasiya ediləcəyi isə artıq pedaqoji və metodoloji müzakirələrin əsas mövzusuna çevrilmişdir. Müəllimlərin bu prinsipləri mənimsəməsi və onları dərs prosesinə daxil etməsi qlobal təhsilin uğurla həyata keçirilməsinin əsas şərtidir.

### Qlobal təhsilin zəruriliyi

Qlobal təhsil sadəcə müasir dövrün dəbi deyil, getdikcə daha da mürəkkəbləşən və bir-birinə sıx bağlı olan dünyada yaşamaq və işləmək üçün zəruri olan yeni bilik və bacarıqlara yiyələnmənin zərurətidir. Dünya qarşılıqlı asılılıq mərhələsinə keçmişdir. Artıq bir ölkədə verilən qərar, atılan addım, hətta fərdi davranış belə, digər regionlara təsir göstərə bilir. Bu reallıq fonunda təhsilin də yalnız lokal problemlərlə məhdudlaşması mümkün deyildir. Fərdin həm yerli, həm də qlobal miqyasda düşünə bilməsi, dünyada baş verən hadisələri anlama bacarığı və onlara münasibət bildirmək imkanları formalaşmalıdır. Məhz bu məqsədlə qlobal təhsil həyati əhəmiyyət daşıyır.

İlk növbədə, qlobal təhsil insanların dünyaya açıq düşüncə ilə yanaşmasına şərait yaradır. Bu isə yalnız məlumatlı olmaq deyil, eyni zamanda, tənqidi düşünmək, müxtəlif perspektivləri anlamaq, empatiya bacarıqlarının inkişafını tələb edir. Çünki insanları sadəcə faktlarla tanış edən deyil, onları bu faktlara münasibət bildirməyə təşviq edən təhsil sistemi artıq müasir dövrün tələbinə çevrilmişdir.

Qlobal təhsilin əhəmiyyətini artıran əsas səbəblərdən biri də qlobal problemlərin miqyası və təcili xarakteridir. İqlim dəyişikliyi, yoxsulluq, pandemiyalar, kütləvi miqrasiya, zorakılıq, sosial ayrı-seçkilik və informasiya manipulyasiyası kimi məsələlər təkcə bir ölkəyə aid deyildir. Onların həlli üçün beynəlxalq əməkdaşlıq və qlobal düşüncə tələb olunur. Bu baxımdan, qlobal təhsil fərdləri bu problemləri anlamağa və onların bir parçası olduqlarını dərk etməyə yönəldir.

Bundan əlavə, qlobal əmək bazarının tələbləri də dəyişməkdədir. Beynəlxalq şirkətlər, çoxmillətli təşkilatlar və rəqəmsal iqtisadiyyat çevik, müxtəlif mədəniyyətlərlə işləmə bacarığı olan, dil biliklərinə və interkultural savadlılığa malik işçi qüvvəsinə ehtiyac duyur. Bu isə artıq yalnız peşə bilikləri ilə deyil, həm də dünyagörüşü və münasibətlə bağlı bir məsələdir. Qlobal təhsil bu tələblərə uyğun gələn səriştələrin (kompetensiyaların) formalaşdırılmasında mühüm rol oynayır.

Qlobal təhsil həm də sosial ədalət və vətəndaş məsuliyyəti mövzularında fərqlilik yaradır. Bu təhsil yanaşması insan hüquqlarının, cəmiyyətin zəif təbəqələrinin müdafiəsini, gender bərabərliyini və inklüzivliyi təşviq edir. Fərdlər sosial hadisələrə biganə qalmır, onları dərk etməyə və dəyişdirməyə çalışır. Bu isə təhsilin transformativ gücünü - cəmiyyəti dəyişmə vasitəsini ortaya qoyur.

Eyni zamanda, qlobal təhsil sülh və tolerantlıq mədəniyyətinin inkişafına xidmət edir (Müxtəlif mədəniyyətləri, dinləri, həyat tərzlərini tanıyan və onlara hörmətlə yanaşan bir fərd zorakılığa deyil, dialoqa üstünlük verəcəkdir). Belə fərdlərin çoxluğu isə həm lokal, həm də beynəlxalq səviyyədə daha sabit və tolerant cəmiyyətlərin əsasını təşkil edir.

Nəhayət, qlobal təhsil gələcəyin təhsilidir. Bu təhsil modeli fərdləri yalnız mövcud dünyaya deyil, həm də daim dəyişən və qabaqcadan görünməsi çətin olan gələcəyə hazırlayır. O gələcək ki, orada söhbət yalnız "nə bilirik?" sualından deyil, daha çox "dünya qarşısında hansı mövqedəyik və hansı məsuliyyəti daşıyırıq?" sualından gedir.

Bu səbəblərdən qlobal təhsil təkcə məktəblərin deyil, cəmiyyətin bütün təbəqələrinin marağında olmalı, dövlət siyasətindən müəllim hazırlığına qədər hər mərhələdə öz yerini tapmalıdır.

### Qlobal təhsilə yanaşmalar: tədqiqatçıların baxışları

Qlobal təhsil anlayışı müasir pedaqoji və fəlsəfi düşüncənin diqqət mərkəzində olan məsələlərdəndir. Bu anlayış təkcə təhsil texnologiyaları və metodları ilə bağlı deyil, həm də insanın dünyadakı mövqeyi, məsuliyyəti və gələcək nəsillərin necə formalaşdırılacağı sualları ilə sıx bağlıdır. Müxtəlif sahələrdən olan tanınmış şəxsiyyətlər bu məsələyə fərqli prizmalardan yanaşsalar da, ümumi məqam ondan ibarətdir ki, təhsil yalnız lokal ehtiyaclara deyil, qlobal çağırışlara cavab verməlidir.

Braziliyalı pedaqoq Paulo Freire qlobal təhsil ideyasının ideoloji və sosial təməlini qoyan təhsilşünaslardandır. Onun "Məzlumların pedaqogikası" ("Pedagogy of the Oppressed") adlı əsərində vurğuladığı əsas fikir ondan ibarətdir ki, təhsil sadəcə informasiya ötürmək deyil, insanın azad düşünən, ictimai proseslərdə iştirak edən və ədalət uğrunda mübarizə aparan bir fərd kimi formalaşması prosesidir. Freireyə görə, tənqidi düşünmə və ictimai şüurun formalaşdırılması qlobal təhsil üçün əsas şərtlərdən biridir. O, təhsili dəyişdirici bir güc, insanı dünyanı "oxumağa" və sonra onu "yenidən yazmağa" sövq edən vasitə kimi görürdü.

Amerikalı filosof və hüquqşünas Martha Nussbaum isə qlobal təhsili etik və humanitar əsaslar üzərində qurulmalı olan bir yanaşma kimi təqdim edir. Onun fikrincə, müasir təhsil sistemləri texniki bilikləri önə çıxararaq, insani və əxlaqi dəyərləri kölgədə qoyur. Halbuki qlobal vətəndaş yetişdirmək üçün insanda empati, mədəniyyətlərə hörmət, fərqliliklərə dözümlülük kimi keyfiyyətlər formalaşdırılmalıdır. Nussbaumun "İnsanlığın yetkinləşməsi" ("Cultivating Humanity") adlı əsərində qlobal təhsil anlayışı insanın həm yerli, həm də qlobal miqyasda məsuliyyətli vətəndaş kimi formalaşması, yetkinləşməsi kontekstində təqdim olunur.

Fransız filosof Edgar Morin isə təhsilin gələcəyini qlobal problemlərin kontekstində düşünməyi təklif edir. Onun UNESCO üçün hazırladığı "Gələcək üçün yeddi dərs" adlı sənəddə ("Seven Complex Lessons in Education for the Future") qeyd edilir ki, təhsil insanı sadəcə ayrı-ayrı elmlərlə tanış etməməli, onu bütöv və kompleks şəkildə düşünə bilən şəxsiyyətə çevirməlidir. Morinin fikrincə, təhsilin məqsədi insanı təkcə informasiya ilə yükləmək deyil, onu dünyanı dərk edən, fərqli sahələr arasında əlaqə qura bilən və qlobal problemlərə həssas olan bir vətəndaşa çevirməkdir.

Qlobal təhsil anlayışı təkcə fərdi mütəfəkkirlərin ideyaları ilə məhdudlaşmır. UNESCO, OECD, UNICEF kimi beynəlxalq təşkilatlar bu konsepsiyanın təşviqində və inkişafında önəmli rol oynayırlar. UNESCO-nun "Qlobal vətəndaşlıq təhsili" (Global Citizenship Education - GCED) təşəbbüsü bu sahədə aparıcı proqramlardan biridir. Bu proqramda əsas məqsəd insanların qlobal problemlər qarşısında fəal mövqe tutması, fərqliliyə hörmət, insan hüquqları və sülh mədəniyyəti kimi dəyərlərin təşviq edilməsidir.

OECD isə təhsildə "21-ci əsr bacarıqları"nı ön plana çıxararaq, tənqidi düşünmə, əməkdaşlıq, mədəniyyətlərarası kommunikasiya, rəqəmsal savadlılıq kimi sahələri qlobal təhsilin ayrılmaz hissəsi hesab edir. Bu təşkilatlar göstərir ki, qlobal təhsil artıq yalnız nəzəri müzakirə deyil, eyni zamanda, praktik siyasətə çevrilməkdədir.

Qlobal təhsil haqqında bu müasir yanaşmalar göstərir ki, bu konsepsiya sadəcə elmi anlayış deyil, həm də fəlsəfi, etik və sosial ölçüləri olan genişmiqyaslı bir təhsil modelidir. Bu modelin həyata keçirilməsi üçün isə müəllim hazırlığından tutmuş, təhsil proqramlarının məzmununa qədər hərtərəfli dəyişikliklərə ehtiyac vardır.

### Qlobal təhsilin məzmunu necə olmalıdır?

Qlobal təhsil ideyasının uğurla həyata keçirilməsi, ilk növbədə, onun məzmununun dəqiq və məqsədyönlü şəkildə müəyyən olunmasından asılıdır. Yəni bu təhsil modeli yalnız prinsiplərlə və niyyətlərlə deyil, eyni zamanda, dərs proqramlarında, dərsliklərdə, metodikalarda öz əksini tapmalıdır. Bəs qlobal təhsilin məzmunu konkret olaraq nələri əhatə etməlidir?

*Birinci, qlobal problemlər haqqında bilikləri.* Qlobal təhsilin əsas komponentlərindən biri beynəlxalq miqyasda narahatlıq doğuran məsələlər haqqında məlumatlılıqdır. Bunlara iqlim dəyişikliyi, yoxsulluq, zorakılıq, silahlı münaqişələr, insan hüquqları pozuntuları, miqrasiya, gender bərabərsizliyi, pandemiyalar və digərləri daxildir. Məzmun bu problemlərin səbəblərini, nəticələrini və mümkün həll yollarını təqdim etməlidir. Şagirdlər bu problemlərlə bağlı müxtəlif ölkələrdəki vəziyyətləri müqayisə etməyi öyrənməlidirlər.

*İkinci, mədəniyyətlərarası anlayış və empati.* Qlobal təhsil mədəniyyətlərarası dialoqun vacibliyini vurğulamalıdır. Dərslik və proqramlarda müxtəlif xalqların tarixi, ənənələri, dilləri və inancları haqqında məlumatlar təqdim olunmalıdır. Məqsəd şagirdlərdə "biz və onlar" ayrı-seçkiliyini deyil, ortaq bəşəri kimlik və qarşılıqlı hörmət anlayışını formalaşdırmaqdır.

Bu istiqamətdə ədəbiyyat dərslərində fərqli mədəniyyətlərə məxsus nümunələr, tarix dərslərində bir hadisəyə müxtəlif xalqların baxış bucaqları yer ala bilər.

*Üçüncü, tənqidi və analitik düşüncə bacarıqları.* Qlobal təhsil yalnız bilik ötürmək deyil, həm də şagirdin düşünmə tərzini formalaşdırmaq məqsədi daşıyır. Məzmun elə hazırlanmalıdır ki, şagird informasiya bolluğu qarşısında düzgün seçim etməyi, informasiya mənbələrini qiymətləndirməyi və tənqidi suallar verməyi öyrənsin. Çünki bu bacarıqlar saxta xəbərlərlə, manipulyasiya ilə dolu informasiya cəmiyyətində yaşamaq üçün həyati önəm daşıyır.

*Dördüncü, əxlaqi və sosial məsuliyyət.* Qlobal təhsil şagirdlərdə vicdanlı, məsuliyyətli və fəal vətəndaşlıq hissi aşılamalıdır. Burada söhbət yalnız öz ölkəsinə deyil, bütün insanlığa qarşı cavabdehlik hissindən gedir. Məzmun elə qurulmalıdır ki, şagirdlər "mən bu dünyada nəyi dəyişə bilərəm?" sualını verməyə təşviq olunsun.

Sosial ədalət, insan haqları, könüllülük, ictimai fəallıq və sosial təşəbbüslər dərs materiallarında öz yerini tutmalıdır.

*Beşinci, əməkdaşlıq və ünsiyyət bacarıqları.* Qlobal problemlər fərdi deyil, kollektiv yanaşma tələb edir. Ona görə də qlobal təhsilin məzmunu komanda işi, dialoq, empati və konfliktin dinc yolla həlli kimi bacarıqları inkişaf etdirməlidir. Məsələn, müzakirələr, debatlar, qrup layihələri kimi metodlarla şagirdlər həm bir-birindən öyrənir, həm də sosial bacarıqlarını inkişaf etdirirlər.

*Altıncı, rəqəmsal və media savadlılığı.* Müasir dövrdə informasiya, əsasən, rəqəmsal platformalardan alınır. Qlobal təhsil bu sahəni də əhatə etməli, şagirdlərə media manipulyasiyalarını tanımaq, dezinformasiyadan qorunmaq, etibarlı mənbələri ayırd etmək kimi bacarıqları öyrətməlidir. Rəqəmsal texnologiyalar həm də beynəlxalq əməkdaşlıq üçün əla imkanlar təqdim edir (məsələn, onlayn məktəblərarası layihələr).

Qlobal təhsilin məzmunu hər hansı bir ayrıca fənnin yox, bütün fənlərin və ümumi təhsil fəlsəfəsinin tərkib hissəsi kimi qurulmalıdır. Bu, məktəb proqramlarının yenidən nəzərdən keçirilməsini, müəllimlərin bu istiqamətdə hazırlığını və dərsliyin, materialların uyğunlaşdırılmasını tələb edir. Yəni qlobal təhsil konsepsiyası yalnız bir fənn və ya modul deyil, bütöv bir yanaşmadır - şagirdin dünyaya baxışını formalaşdıran kompleks sistemdir.

## Milli səviyyədə qlobal təhsil necə inkişaf etdirilməlidir?

Qlobal təhsil anlayışı hər nə qədər beynəlxalq kontekstdə formalaşsa da, onun həyata keçirilməsi və davamlılığı yerli şəraitə uyğunlaşdırılmadan mümkün deyil. Hər bir ölkə bu konsepsiyanı öz milli-mədəni, sosial-iqtisadi və pedaqoji reallıqları fonunda mənimsəməli və tətbiq etməlidir. Azərbaycan da bu prosesin kənarında qala bilməz. Əksinə, ölkəmizin həm coğrafi mövqeyi, həm də mədəni kimliyi onu qlobal və lokal dəyərlərin kəsişdiyi bir məkana çevirir. Apardığımız təhsil islahatlarında dünyanın inkişaf etmiş təhsil məkanları ilə əlaqələr və əldə olunmuş innovativ təcrübələrin öyrənilərək ümumiləşdirilməsi və tədbiq olunması qlobal təhsil siyasəti ilə bağlı potensial imkanlarımızdan xəbər verir. Bu imkanları aşağıdakı məzmunda ümumiləşdirmək olar.

*1. Milli kurikulumda qlobal dəyərlərin yeri*

Son illərdə Azərbaycanın təhsil sistemində müəyyən yenilənmələr müşahidə olunur. Xüsusilə də milli kurikulumun tətbiqi ilə fənn proqramlarında şagirdyönümlü, bacarıq əsaslı yanaşmalar güclənmişdir. Lakin bu dəyişikliklərin qlobal təhsilin əsas məqsədlərinə tam cavab verdiyini demək çətindir. Qlobal təhsil sadəcə texniki bacarıqlar deyil, əxlaqi, sosial və vətəndaş məsuliyyətinə əsaslanan bir yanaşma tələb edir. Bu isə dərs proqramlarında daha çox qlobal problematikaya, multikultural dəyərlərə, sosial ədalət və ətraf mühit məsələlərinə yer ayrılmasını vacib edir.

*2. Multikultural cəmiyyət və qlobal təhsil*

Azərbaycanın multikultural cəmiyyət olması qlobal təhsil üçün əlverişli zəmin yaradır. Ölkədə müxtəlif millət və dinlərə mənsub insanlar bir arada yaşayır və bu, məktəb mühitində də əks olunur. Qlobal təhsilin təməl prinsiplərindən biri olan mədəni müxtəlifliyin qəbul olunması Azərbaycanın ictimai strukturu ilə uzlaşır. Bu mühitdən istifadə etməklə, məktəblərdə tolerantlıq, empati və mədəniyyətlərarası dialoq kimi mövzuların interaktiv formada öyrədilməsi mümkündür.

*3. Milli-mənəvi dəyərlərlə qlobal dəyərlərin uzlaşdırılması*

Qlobal təhsilin tətbiqi zamanı ən çox narahatlıq doğuran məsələlərdən biri - onun milli kimliyə və yerli dəyərlərə təsiridir. Bəzi cəmiyyətlərdə bu, qloballaşmanın milli adət-ənənələri sıradan çıxarma ehtimalı ilə əlaqələndirilir. Lakin burada əsas məsələ balansın tapılmasıdır. Qlobal təhsil milli kimliyi zəiflətmək yox, əksinə, fərdi öz mədəniyyətini tanıyaraq başqalarının mədəniyyətini də anlamağa sövq etməlidir. Başqa sözlə, "yerli olaraq düşün, qlobal olaraq davran" prinsipi əsas götürülməlidir.

Azərbaycan müstəqil dövlət kimi həm öz milli-mənəvi köklərinə sadiq qalır, həm də gənc nəslə qlobal məsuliyyət hissini aşılayır. Burada din, dil, ailə və vətənpərvərlik kimi dəyərlərlə insan hüquqları, ətraf mühitin qorunması və sosial ədalət kimi qlobal anlayışlar arasında qarşılıqlı əlaqə və tamamlama yaradılmalıdır.

*4. Müəllim hazırlığı və peşəkar inkişaf*

Qlobal təhsilin həyata keçirilməsində ən mühüm rol müəllimlərin üzərinə düşür. Onlar yalnız bilik ötürən deyil, həm də şagirdlərin dünyagörüşünü formalaşdıran əsas şəxsiyyətlərdir. Təəssüf ki, Azərbaycanda müəllim hazırlığı və ixtisasartırma proqramlarında hələ də qlobal təhsil kompetensiyaları geniş şəkildə yer almır.

Müəllimlər üçün xüsusi təlimlər təşkil olunmalı, onlara qlobal məsələlərin dərsə necə inteqrasiya olunması, mədəniyyətlərarası dialoqu necə təşviq etmək və şagirdlərdə empati bacarıqlarını necə inkişaf etdirmək kimi məsələlər praktiki şəkildə öyrədilməlidir.

*5. Texnologiya və rəqəmsal resursların imkanları*

Azərbaycanda təhsil sahəsində rəqəmsallaşma sürətlə inkişaf edir. Bu, qlobal təhsilin yayılması üçün əla fürsətlər yaradır. Onlayn platformalar vasitəsilə beynəlxalq layihələrdə iştirak, digər ölkə məktəbləri ilə əməkdaşlıq, virtual siniflər və beynəlxalq forumlar vasitəsilə şagirdlərin dünyagörüşünü genişləndirmək mümkündür. Bu imkanlar strateji şəkildə dəstəklənməli və genişləndirilməlidir.

Yekun olaraq demək olar ki, qlobal təhsil Azərbaycanın təhsil sistemində sadəcə yeni bir mövzu və ya fənn kimi deyil, bütün təlim-tərbiyə fəlsəfəsinin əsas elementi kimi qəbul olunmalıdır. Bu, bir tərəfdən ölkəmizi qlobal dünyaya daha yaxından bağlaya, digər tərəfdən isə gələcək nəsilləri həm vətəninə bağlı, həm də dünyaya açıq fərdlər kimi formalaşdıra bilər.

**Erkən uşaqlıq dövrü insanın inkişafının ən həssas və həlledici mərhələlərindən biri hesab olunur. Bu mərhələdə uşaqlar ətraf aləmi tanımağa, sosial münasibətlər qurmağa və əsas bacarıqları mənimsəməyə başlayırlar. Mütəxəssislərin fikrincə, məhz bu yaş dövründə tətbiq olunan təlim metodları uşağın gələcək təhsilinin və şəxsiyyət kimi inkişafında mühüm rol oynayır. Son illər erkən uşaqlıq təhsilində oyun əsaslı öyrənmə yanaşması daha geniş yayılmağa başlayıb. Bu mövzu ilə bağlı təqdim olunan yazı xarici təhsil resurslarında dərc edilmiş və erkən uşaqlıq təhsilində oyun əsaslı öyrənmənin mahiyyətini və əhəmiyyətini izahını verən məqalə əsasında hazırlanıb.**



# Erkən uşaqlıq təhsili:

# Oyun əsaslı öyrənmənin təhsildə rolu

### Oyun əsaslı öyrənmə nədir?

Oyun əsaslı öyrənmə yanaşması uşaqların təbii maraq və kəşf etmə ehtiyacına əsaslanır. Bu yanaşmaya görə, uşaqlar ən effektiv şəkildə sərbəst oyun, müşahidə və təcrübə yolu ilə öyrənirlər. Onlara maraqlarına uyğun fəaliyyət seçmək imkanı verildikdə, həm intellektual, həm də emosional inkişaf daha sürətli və davamlı olur.

Müasir oyun nəzəriyyəsinin banilərindən biri hesab olunan professor Co Frostun fikrincə, uşaqların təhlükəsiz və dəstəkləyici mühitdə oyun oynaması onların daha dözümlü və güclü şəxsiyyət kimi formalaşmasına şərait yaradır. O qeyd edir ki, oyun uşaqlarda təxəyyülün, dil bacarıqlarının, sosial münasibətlərin və motor qabiliyyətlərinin inkişafında əsas vasitədir.

### Praktik nümunə

Təsəvvür edək ki, üç yaşlı uşaq müxtəlif ölçülü, rəngli və formalı kublarla oynayır. O, kubları bir-birinin üzərinə yığır, onların aşmasını müşahidə edir və yenidən cəhd göstərir. Qüllə möhkəm dayandıqda isə uşağın üzündə yaranan sevinc hissi bu prosesin nə qədər dəyərli olduğunu göstərir.

Bu sadə oyun zamanı uşaq böyük və kiçik anlayışlarını, tarazlıq və səbəb-nəticə əlaqələrini öyrənir. Müəllimin düzgün istiqamətləndirməsi isə rənglərin, fiqurların tanınması kimi əlavə biliklərin mənimsənilməsinə imkan yaradır. Bu, oyun əsaslı öyrənmənin praktik nümunələrindən biridir.



### Əsas elementlər

İsveçrəli psixoloq Jan Piaje oyunu "uşağın işi" adlandırırdı. Onun idrak inkişafı nəzəriyyəsinə görə, müəllimlər bilik ötürən deyil, öyrənmə prosesində tərəfdaş rolunu oynamalıdırlar. Oyun əsaslı öyrənmənin əsas elementlərinə aşağıdakılar daxildir:

* Vizual cəhətdən cəlbedici və təhlükəsiz öyrənmə mühiti - oxu, yazı, yaradıcı fəaliyyət, dramatik oyun və sensor məşğələlər üçün xüsusi guşələr yaradılır.

* Seçim və müstəqillik hüququnun təşviqi - uşaqlara istədikləri fəaliyyəti seçmək imkanı verilir, bu isə onların özünəinamını və qərarvermə bacarığını artırır.

* Araşdırma və təcrübə yolu ilə öyrənmə - açıq tipli oyunlar uşaqlara fərziyyələr irəli sürmək, müşahidə aparmaq və səbəb-nəticə əlaqələrini dərk etmək imkanı yaradır.

* Təkrar və möhkəmləndirmə - uşaqlar çətin tapşırıqlara dəfələrlə qayıdaraq bacarıqlarını möhkəmləndirirlər.



### Niyə vacibdir?

Bu yanaşma uşaqlarda sosial və emosional bacarıqların inkişafına ciddi töhfə verir. Onlar həm təkbaşına, həm də qrup şəklində oynayaraq ünsiyyət qurmağı, emosiyalarını ifadə etməyi və münaqişələri həll etməyi öyrənirlər. Eyni zamanda, oyun uşaqların yaradıcılıq və təxəyyülünü inkişaf etdirir.

Oyun vasitəsilə öyrənmə idrak inkişafını da dəstəkləyir. Uşaqlar düşünmə, müqayisə etmə, problem həll etmə bacarıqlarını məhz bu prosesdə formalaşdırırlar. Bundan əlavə, fiziki aktivlik uşaqların iri və xırda motor bacarıqlarının inkişafına, koordinasiya və tarazlıq hissinin güclənməsinə şərait yaradır.

Nəticə etibarilə, oyun əsaslı öyrənmə erkən uşaqlıq təhsilində səmərəli və elmi əsaslara söykənən yanaşmalardan biridir. Bu metod uşaqlarda müstəqillik, özünəinam, yaradıcılıq və sosial bacarıqların formalaşmasına kömək edir, onların gələcək akademik uğurları üçün möhkəm təməl yaradır.

***Mənbə:*** *OWIS Riyadh - What is Play-Based Learning in Early Childhood and Its Importance*

**Tünzalə QULİYEVA**

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 418 **Sifariş:** 231

**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Sərdarov Şahin Almas oğluna verilmiş B-015801 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Məmmədova (Nəsirova) Aysel Bayram qızına verilmiş B-729172 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 36 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2018-ci ildə bitirmiş İsmayılova Dilarə Yaşar qızına verilmiş C-195102 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2002-ci ildə bitirmiş Rzayeva Səidə Rafiq qızına verilmiş 611166 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qaradağlı kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Zamanov Ağabala Zamin oğluna verilmiş C-819424 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** internat tipli texniki humanitar təbiət fənləri təmayüllü gimnaziyanı 2011-ci ildə bitirmiş Mahmudova Arzu Xamis qızına verilmiş A-037695 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2006-cı ildə Qasımov Elmir Əlövsət oğluna verilmiş B-058221 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 34 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədova Xəyalə Ənvər qızına verilmiş A-654263 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Saatlı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əliyev Elnur İmran oğluna verilmiş B-059246 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Aşağı Mollu kənd tam orta ümumtəhsil məktəbi 2024-cü ildə eksternat qaydada bitirmiş Əzimova Roza Nəsib qızına verilmiş E-722820 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 39 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Qafarov Emil Sabir oğluna verilmiş B-481800 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 148 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Həsənova (İsrafilova) Fidan Əli qızına verilmiş B-218089 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Mirzalıyeva Vüsalə Mirzalı qızına verilmiş A-150016 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 194 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Nağızadə Onur Ziya oğluna verilmiş E-804001 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 153 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Mövsümova Edilə Allahverdi qızına verilmiş B-369506 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Məmmədova Çinarə Surəddin qızına verilmiş ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi** tərəfindən 2020-ci ildə Məhəmmədsalahov Ziyad Vidadi oğluna verilmiş A-138699 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 276 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Əhmədova Əfsanə Sənan qızına verilmiş A-334065 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Dövlət Universiteti** tərəfindən 1988-ci ildə Məmmədova Arzu Əlimusa qızına verilmiş PB-021486 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2011-ci ildə Əliyev Yusif Cəmaləddin oğluna verilmiş AA-003776 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qarasuçu kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Qasımova Xatirə Faiq qızına verilmiş A-207440 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş İsmayılov Cavidan Nüsrət oğluna verilmiş E-796956 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Məmmədov Mirzə Ramil oğluna verilmiş E-457090 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 44 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş İsmayılov Kamal Vahid oğluna verilmiş 1242 nömrəli ümumi orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1989-cu ildə bitirmiş Bayramov Arif Məmmədşah oğluna verilmiş A-519820 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 36 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş İsmayılova Dilarə Yaşar qızına verilmiş E-285609 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2003-cü ildə İslamova Leyla Cahangir qızına verilmiş A-126128 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Yalavac kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Abdullayev Aydın Ələsgər oğluna verilmiş A-840470 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2007-ci ildə Osmanov Murad Məmməd oğluna verilmiş A-120054 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız saylır.

**Şuşa şəhər** 1 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Quluzadə Davud Namiq oğluna verilmiş E-502696 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2023-cü ildə Müzəffərli Jalə Elxan qızına verilmiş C-182195 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 14 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Abasova Maral Mübariz qızına verilmiş A-298434 nömrəli əsas təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2014-cü ildə İsgəndərov Ülvi Zülfi oğluna verilmiş A-036689 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına hərbi liseyi** 2004-cü ildə bitirmiş Hacıyev Pərviz Hamiz oğluna verilmiş B-083410 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 39 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Əliyeva Nuranə Novruz qızına verilmiş B-684778 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 245 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Seyidov Onur Mirhətəm oğluna verilmiş A-507545 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Musayeva Şəbnəm Azər qızına verilmiş E-209632 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR** Sədərək rayon 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Həmzəyeva Zeynəb Telman qızına verilmiş A-437934 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 261 nömrəli məktəb-liseyi 2023-cü ildə bitirmiş Paşazadə Rufan Rüfət oğluna verilmiş E-546644 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Hüseynov Rafiq Xurşud oğluna verilmiş A-330630 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət** Universiteti tərəfindən 2021-ci ildə Əsədbəyli Ağabala Afərin oğluna verilmiş C-105969 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Xanlıqlar kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Səfərova Lətafət Qurban qızına verilmiş A-734441 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2012-ci ildə Salahova Aidə Adil qızına verilmiş AA-026019 nömrəli fərqlənmə subbakalavr diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 283 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Kərimova Rəvanə Fikrət qızına verilmiş A-629337 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı Akademiyası** tərəfindən 2001-ci ildə Qarayeva (Məmmədova) Billurə Şəmşir qızına verilmiş A-092961 nömrəli bakalavr diplomu və 2003-cü ildə verilmiş MNA-012800 nömrəli fərqlənmə magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Hüseynov Rafiq Xurşud oğluna verilmiş A-219820 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 166 nömrəli məktəb-liseyin IX sinfini 2009-cu ildə bitirmiş Həsənova Ayşə Fərhad qızına verilmiş A-767368 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 13 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Abdullayeva Nərmin Namiq qızına verilmiş E-275709 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Karrar kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Mürsəliyeva (Dəmirova) Aygün Zahir qızına verilmiş B-672308 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Karrar kənd tam orta məktəbin VIII sinfini 1987-ci ildə bitirmiş Şiraliyev Şahin Bəyalı oğluna verilmiş 171537 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan Peşə Liseyini** 2014-cü ildə bitirmiş Xantemirova İradə İlqar qızına verilmiş A-055582 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 186 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Cavadova Yeganə Zahir qızına verilmiş A-216630 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

"İdrak" liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin ingilis bölməsinin Azərbaycan ədəbiyyatı müəllimi Xanımgül Həsənovaya anası

**LEYLA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.